18 avqust 2021 №60-61 (1838)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar

Ermənistanın məqsədi status-kvonu əbədi etmək, bir qarış torpağı qaytarmamaq, məsələni uzatmaq idi. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri avqustun 16-da Kəlbəcərə səfəri zamanı deyib.

Xəbər verildiyi kimi, avqustun 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. Bu, Vətən müharibəsindən sonra dövlət başçısının Kəlbəcər rayonuna ilk səfəridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yolüstü Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr ediblər. "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir... Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir. Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!" – deyə dövlət başçısı bildirib.

Yol boyu işğalçıların törətdiyi dağıntıların izləri görünür. Prezident deyib: "Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür".

Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlinin qoyulması mərasimində iştirak ediblər. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11,6 kilometr uzunluğunda tunel çəkiləcək.

Prezident İlham Əliyev deyib: "Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur... İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər – Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

*davamı səh. 2-də*

## İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri yaradılır

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılması, habelə tikililərin sökülməsi sahəsində müvafiq qurumların çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə reyestr yaradılacaq. Prezident İlham Əliyev avqustun 12-də bununla bağlı fərman imzalayıb.

Dövlət başçısı avqustun 12-də, həmçinin işğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılıb və Baş İdarə haqqında Əsasnamə təsdiq edilib.

## Nizami irsinə həsr olunmuş müsabiqənin qalibləri müəyyənləşib

Mədəniyyət Nazirliyinin elan etdiyi "Muzey eksponatının hekayəsini sən danış: Nizami Gəncəvi" hekayə müsabiqəsinin qalibləri müəyyənləşib.

Müsabiqə qaliblərinə mükafatların sentyabr ayında təqdim edilməsi planlaşdırılır.

Qeyd edək ki, bu, "Muzey eksponatının hekayəsini sən danış" layihəsində ikinci müsabiqədir. İlk müsabiqə 2020-ci ildə keçirilmişdi.

*səh. 3*

## Lavrov Rusiya şirkətlərini Azərbaycanın azad edilmiş ərazilərinə diqqət yetirməyə çağırıb

Rusiyanın xarici işlər naziri Sergey Lavrov hesab edir ki, Rusiya avtomobil şirkətləri Azərbaycanın işğaldan azad edilmiş bölgələrinin tranzit potensialına diqqət yetirməlidir.

Sergey Lavrov bu barədə Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası ilə görüşdə bildirib.

"Hazırda orada infrastrukturun və magistral yollarının bərpası üzrə fəal iş aparılır, buna görə də xahiş olunur, bu perspektivli əraziyə daha yaxından nəzər salasınız, mənim fikrimcə, bu, iqtisadi cəhətdən faydalı olacaq", – deyə o qeyd edib.

"Yaxın qonşuluğumuzun bu hissəsinin iqtisadi inkişafının Rusiyanın fəal iştirakı ilə davam etməsi çox vacibdir", – deyə Rusiya XİN başçısı vurğulayıb.




## TÜRKSOY türk respublikalarının sənət irsini Macarıstanda təqdim edir

TÜRKSOY-a daxil olan keçmiş Sovet İttifaqının beş respublikasının – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30 illiyi münasibətilə Macarıstanın paytaxtı Budapeşt şəhərində festival keçirilir. Avqustun 17-də başlayan mədəniyyət və sənət festivalı ayın 23-dək davam edəcək.

Festival çərçivəsində Türk dünyasının folklor musiqisi, fotosərgi və müxtəlif sənət növlərini təmsil edən iştirakçıların ustad dərsləri təşkil olunacaq.

Beynəlxalq Muğam Mərkəzinin solistləri də festivalda iştirak edir. Solistlər festivalda milli musiqi alətlərimizi təbliğ edən proqramla çıxış edəcəklər.

Ölkəmizdən eyni zamanda xalça sənəti üzrə Nazilə Əbilova, tətbiqi sənət üzrə Pərvanə Eyyubova da festivalın iştirakçıları sırasındadır.

## Səsi və yaradıcılığı ilə qəlblərdə əbədi yaşayacaq

### Müslüm Maqomayevin doğum günündə xatirəsi yad olundu

Avqustun 17-də dünya şöhrətli Azərbaycan musiqiçisi, müğənni və bəstəkar, milyonların qəlbini fəth etmiş Müslüm Maqomayevin (1942–2008) anadan olmasının 79-cu ildönümündə I Fəxri xiyabandakı məzarı başında anım mərasimi keçirildi. Böyük sənətkarın məzarının üzərinə tər çiçəklər düzüldü, xatirəsi ehtiramla yad olundu.



Anım mərasimində çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev bildirdi ki, musiqi sənətimizin böyük simalarından olan Müslüm Maqomayev bənzərsiz ifası ilə Azərbaycanı dünyanın bir çox yerlərində hər zaman böyük hörmət və məhəbbətlə təbliğ edib, sevdirib: "Onun yaradıcılığı sovet dönəmində və müstəqillik illərində hər zaman ulu öndər Heydər Əliyevin diqqətində idi və müğənni ümummilli liderimizin qayğısı ilə əhatə olunmuşdur. Sənətkar Azərbaycanın, keçmiş ittifaqın və Rusiyanın ali mükafatlarına layiq görülmüşdü. Müslüm Maqomayev dünyasını dəyişdikdən sonra Bakıda 26 nömrəli musiqi məktəbinə onun adı verildi, yaşadığı binaya xatirə lövhəsi vuruldu. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq Bakı şəhərində Müslüm Maqomayevin heykəlinin qoyulması nəzərdə tutulub. O, hər zaman Azərbaycan xalqının qəlbində yaşayır. 66 il ömür yaşayan sənətkar musiqi tariximizdə iz qoydu, ömrünü yaradıcılığa həsr etdi".

Vaqif Əliyev sənətkarın bioqrafiyasından mühüm məqamlara diqqət çəkdi. Qeyd etdi ki, müğənni gənc yaşlarından beynəlxalq festivalların laureatı olub. Azərbaycan Dövlət Konservatoriyasında Şövkət Məmmədovanın sinfini bitirən M.Maqomayev həm Azərbaycan bəstəkarlarının, həm də dünya musiqisi incilərini möhtəşəm konsert zallarında məharətlə ifa edib: "Zaman keçəcək, nəsillər bir-birini əvəz edəcək, amma Müslüm Maqomayev öz səsi və yaradıcılığı ilə hər bir zaman qədirbilən xalqımızın yaddaşında yaşayacaq".

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov əfsanəvi müğənninin Azərbaycan estrada sənətinə verdiyi töhfələrdən söz açdı, onun bənzərsiz sənətkarlığından, fitri istedadından, zəngin yaradıcılığından bəhs etdi. Müğənninin ən çətin ariyaları, lirik estrada mahnılarını ecazkarlıqla səsləndirdiyi diqqətə çatdırıldı. Sərdar Fərəcov həmçinin sənətkarın mütəmadi olaraq Üzeyir bəyin əsərlərinə müraciət etdiyini bildirdi, onun ifasında səslənən "Sevgili canan" romansının ölməzliyini xüsusi vurğuladı.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov müğənninin Bakıya sonsuz sevgisindən danışdı. Bildirdi ki, o, bütün ömrü uzunu doğulub boya-başa çatdığı şəhərinə sadiq idi. Ömrünün son gününə kimi Bakıdakı dostlarına zəng edərək doğma şəhərini və dostlarını xəbər alardı.

Müslüm Maqomayev adına 26 nömrəli onbirillik musiqi məktəbinin direktoru Gülşən Quliyeva təhsil ocağının fəaliyyəti və sənətkarın xatirəsinə həsr olunan layihələrdən bəhs etdi.

Xatırladaq ki, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev 1942-ci il avqustun 17-də Bakıda anadan olub. 1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olan müğənni, İtaliyanın Milan şəhərindəki "La Skala" teatrında təcrübə keçib. 1966-cı ildə Parisin "Olimpiya" konsert salonunda ilk konsertini verib. 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını (indiki BMA) bitirib, bir il sonra Polşanın Sopot şəhərində keçirilən beynəlxalq mahnı festivalında ilk mükafatını qazanıb. 1975-ci ildə Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri təyin edilib. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsert proqramları ilə çıxış edib.

Görkəmli musiqiçi 2008-ci il oktyabrın 25-də Moskvada dünyasını dəyişib. Sənətkarın cənazəsi Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıya gətirilərək I Fəxri xiyabanda torpağa tapşırılıb. Məzarı üzərində abidəsi ucaldılıb.

### Diaspor nümayəndələrinin mədəniyyət paytaxtımıza növbəti səfəri




*səh. 2*

### 40 ölkədən 134 film 12 kateqoriya üzrə "Animafilm" festivalının mükafatları uğrunda yarışacaq

*səh. 3*

### Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək




*səh. 3*

# Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!




*əvvəli səh. 1-də*

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər – Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkilməndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq".

Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış olub. Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. "Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək", – deyə İlham Əliyev bildirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak ediblər.

Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən dövlət başçısı deyib: "Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da, böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək... Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək... Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq".

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq. Prezident Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğunda tunelin təməlini qoyub.

"Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Kəlbəcəranın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar", – deyə dövlət başçısı qeyd edib.

Daha sonra Laçın rayonuna yola düşən İlham Əliyev və birinci xanım Kəlbəcər-Laçın yolu üzərində sovet dövründə çəkilmiş tuneldən keçiblər. Prezident deyib: "Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir – inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər".

### Laçında hava limanı: buna imkanlarımız da, güclü iradəmiz də var

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoyublar.

Prezident İlham Əliyev deyib: – Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən hava limanının təməlini qoydum. Zəngilan Hava Limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, – mən müharibə başa çatandan sonra elan etmişdim, – yer axtarılacaq və beynəlxalq hava limanları tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, – düz yol, düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, ar-



xamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura – Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı, uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa ediləən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin – Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Lakin bildirmək istəyirəm ki, mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən – oktyabr ayından sonra buralarda qar yağacaq. Mən bunu demək istəməzdim – yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə – Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz müstəqil Azərbaycan dövlətiyik, buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər, böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət ediblər. Qeyd edək ki, pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarında arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlər üçün şərait yaradılıb. Artıq arıçılar Kəlbəcərdə ilk məhsulu əldə ediblər. Arıçılar doğma yurdda əldə edilmiş baldan dövlət başçısına pay veriblər.

Daha sonra Prezident və birinci xanım Kəlbəcər şəhərinə gəliblər. Şəhərdə hər addımda işğalçıların törətdiyi vandalizmin izləri var. "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır... Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar", – deyə İlham Əliyev bildirib.

Dövlət başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaldıb və çıxış edib. Prezident bildirib ki, işğalçılar Kəlbəcəri tərk etməyə məcbur olanda bizdən vaxt istədilər: "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlerini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər,



ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir".

İlham Əliyev vurğulayıb ki, ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. İndi bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi: "Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər. Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər".

### "Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik"

Prezident qeyd edib ki, biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk: "Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca – Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni, torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən bəzi xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər".

Dövlət başçısı çıxışının sonunda bir daha qeyd edib ki, indiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir: "Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.



Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Əşq olsun Azərbaycan xalqına!"

---

## Xalq artisti Rəfiqə Axundova "Şöhrət" ordeni ilə təltif edilib

Prezident İlham Əliyev avqustun 6-da Azərbaycan balet sənətinin görkəmli nümayəndəsi, respublikanın Xalq artisti Rəfiqə Hacı qızı Axundovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Avqustun 7-də 90 yaşı tamam olan Xalq artisti Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə təltif edilib.

Rəfiqə Axundova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, baş baletmeysteri olub. Həyat yoldaşı, Xalq artisti Maqsud Məmmədovla tərəf-müqabil olaraq bir çox balet tamaşalarında əsas partiyaları ifa edib. Bakı Xoreoqrafiya Məktəbinin (indiki BXA) bədii rəhbəri olub.

Rəfiqə Axundovanı təbrik edir, möhkəm cansağlığı arzulayırıq.

---

## "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq"

### Diaspor nümayəndələrinin mədəniyyət paytaxtımıza növbəti səfəri

Avqustun 17-də Azərbaycan diasporu nümayəndələrinin Şuşa şəhərinə növbəti səfəri gerçəkləşib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, mütəmadi olaraq diaspor nümayəndələrinin, xarici jurnalistlərin və elm adamlarının Şuşaya, eləcə də işğaldan azad edilmiş digər rayonlara səfərləri beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında əvəzsiz rol oynayır.

"Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında reallaşan birgünlük səfər çərçivəsində diaspor nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin baş meydanı – Bazarbaşı, Cıdır düzü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydan, Şuşa Bəyannaməsinin imzalandığı məkan, Xurşudbanu Natəvanın evi, "Xan qızı" bulağı, Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidləri və digər tarixi yerləri ziyarət ediblər.

Qarabağın incisi olan qədim Şuşanın tarixi, mədəniyyəti, dahi şəxsiyyətləri və ölkə rəhbərliyinin tapşırığı ilə burada aparılan quruculuq işləri barədə diaspor nümayəndələrinə ətraflı məlumat verilib.

Qeyd olunub ki, diaspor nümayəndələrinin iyulun 27-də Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşa şəhərinə ilk səfəri dünya azərbaycanlıları, eləcə də Azərbaycan ictimaiyyəti arasında böyük maraqla qarşılanıb və təqdir olunub.

Xatırladaq ki, Şuşaya ilk səfərdə 20-dən çox ölkədən tarixi vətənə gəlmiş diaspor nümayəndələri iştirak etmişdi. Budəfəki səfərə 26 ölkədəki Azərbaycan diaspor nümayəndələri qatılıb.

# Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək

Sentyabrın 22-dən 26-dək Bakı Ekspo Mərkəzində VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası ("Baku International Book Fair 2021") keçiriləcək.




Mədəniyyət Nazirliyi tərəfindən keçirilən ənənəvi sərgi-yarmarka bu dəfə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin (1141–1209) 880 illik yubileyinə həsr olunacaq.

Sərginin təşkilində məqsəd kitab və mütaliəni təbliğ etmək və populyarlaşdırmaq, ziyarətçiləri həm Azərbaycan, həm də xarici nəşriyyatların çap məhsulları ilə tanış etmək, nəşriyyat işinə dəstək vermək, nəşriyyatların potensial əməkdaşlığı üçün kitab mağazaları ilə tanış etmək, eləcə də rəqəmsal dövrdə kitab biznesinin inkişafı ilə bağlı təcrübə və fikir mübadiləsini təmin etməkdir.

Sərgidə nəşriyyatlar, mətbəələr, kitab mağazaları və mədəniyyət mərkəzləri təmsil olunacaq. Həmçinin ayrı-ayrı ölkələrdən 200-ə yaxın şirkətin sərgidə iştirak edəcəyi gözlənilir.

"Baku International Book Fair 2021" şirkətlərin çap məhsullarını nümayiş etdirmək və satmaq, habelə yerli və xarici nəşriyyatlar, müəlliflər, eləcə də milli nəşriyyat və poliqrafiya şirkətləri ilə danışıqlar aparmaq və müqavilələr imzalamaq üçün unikal fürsətdir. Sərginin keçiriləcəyi 5 gün ərzində iştirakçıların və ziyarətçiləri əlavə tədbirlərdən ibarət maraqlı proqramlar gözləyir.

Sərginin təşkilatçısı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyidir, təşkilati dəstəyi "Caspian Event Organisers" ("CEO") şirkəti həyata keçirir. Sərgi-yarmarka iştirakçıları təşkilatçılar tərəfindən 6 kvadratmetrə qədər ekspozisiya sahəsi və lazımi avadanlıqlarla təmin ediləcək.

"Baku International Book Fair 2021" sərgisində iştirak etmək və daha ətraflı məlumat almaq üçün sərgi təşkilatçıları ilə əlaqə saxlaya bilərsiniz: +994124041000, bookfair@ceo.az

Qeyd edək ki, Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası ilk dəfə 2009-cu ildə keçirilib və ənənəvi olaraq iki ildən bir təşkil edilir.

# Sankt-Peterburqda faydalı görüşlər

## Bakı Xoreoqrafiya Akademiyasının heyəti Rusiyanın "şimal paytaxtı"na səfər edib




Bakı Xoreoqrafiya Akademiyasının (BXA) tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əziz Qarayusifli və akademiyanın bədii rəhbəri Nailə Məmmədzadə Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfər edib.

BXA-dan bildirilib ki, səfər çərçivəsində ilk görüş Sankt-Peterburq Dövlət Mədəniyyət İnstitutunda keçirilib. İnstitutun birinci prorektoru Sergey Şukşin ilə görüşdə xoreoqrafiya sənəti sahəsində kadr hazırlığı, təhsil, elmi və mədəni əlaqələrin inkişafı, birgə müsabiqələr, festivallar və konfransların keçirilməsi məsələləri müzakirə edilib. Tələbə və müəllim heyəti arasında akademik mübadilə məsələlərinə xüsusi diqqət yetirilib. Qonaqlar institutun dərs otaqları, konsert salonları ilə tanış olublar.

İnstitutun xoreoqrafiya şöbəsinin müdiri, pedaqoji elmlər namizədi E.Qromova və BXA-nın bədii rəhbəri Nailə Məmmədzadə iki ali təhsil müəssisəsini maraqlandıran məsələlərə dair fikirlərini bölüşüblər. Görüşün nəticəsi olaraq iki tədris müəssisəsi arasında elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

Sonra Mariinski Teatrında Əziz Qarayusifli və məşhur balet tənqidçisi Aleksandr Maksov arasında görüş keçirilib. Xoreoqrafiya sənətinin keçmişi, bu günü və gələcəyinə dair müzakirələr aparılıb. Növbəti görüş və müzakirə üçün razılıq əldə edilib.

BXA rəhbərliyi məşhur baletmeyster soydaşımız, Rusiyanın Əməkdar incəsənət xadimi, Sankt-Peterburq Mariinski Teatrı Primorsk səhnəsinin baş baletmeysteri Eldar Əliyevin quruluş verdiyi "Min bir gecə", "Yatmış gözəl", "Korsar" baletlərinin Mariinski səhnəsində nümayişinə də baxıblar. Eldar Əliyev və BXA rəhbərliyi arasında görüş keçirilib. Gələcəkdə Eldar Əliyevin iştirakı ilə BXA-da ustad dərslərinin təşkili, rusiyalı müəllimlərin akademiyada seminarlar keçməsi barədə razılıq əldə edilib. Payız aylarında seminarlara start veriləcək.

Səfər zamanı "Возрождение" teatr emalatxanasının baş direktoru Gennadi Qalitski ilə də faydalı görüş olub. G.Qalitski BXA-da aparılacaq təmir və yenidənqurma, eyni zamanda, avadanlıq və balet paltarlarının alınmasında köməklik göstərəcəyini deyib.

Əziz Qarayusifli Sankt-Peterburqda təhsil alan BXA məzunu Murad Kərimovla da görüşüb. O, akademiya məzununun təhsili və fəaliyyəti ilə maraqlanıb və M.Kərimovu təhsilini bitirdikdən sonra BXA ilə əməkdaşlığa dəvət edib.

Səfərin sonunda isə Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Soltan Qasımovla görüş keçirilib. Baş konsul istedadlı BXA məzunlarına Sankt-Peterburqda təhsillərini davam etdirməyə köməklik göstərməyə hazır olduğunu bildirib. Eyni zamanda BXA ilə Rusiya ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı üçün köməklik göstəriləcəyi vurğulanıb.

# Vətəndaşların videoformatda qəbulu

Mədəniyyət naziri Anar Kərimov avqustun 6-da videoformatda vətəndaşların qəbulunu keçirib. Nazir onlayn görüşdə növbəlilik əsasında qəbula yazılmış vətəndaşların müraciətlərini dinləyib, sualların cavablandırıb. Görüşdə ümumilikdə on bir vətəndaşın müraciəti dinlənilib.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri müxtəlif mövzuları əhatə edib. O cümlədən yaradıcı əməyin qiymətləndirilməsi, mədəniyyət və incəsənət xadimlərinə fəxri adların, fərdi təqaüdlərin verilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, işlə təmin olunma kimi məsələlərə dair müraciətlər olub.

Anar Kərimov ölkəmizdə mədəniyyət sahəsinin idarə olunması ilə bağlı görülən işlərin, bu sahədə islahatların, eyni zamanda nazirlik tərəfindən icrasına başlanılan layihə və təşəbbüslərin ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığını diqqətə çatdırıb.

Nazir həmçinin incəsənət xadimlərinin, Azərbaycan mədəniyyətinə töhfə verən şəxslərin daima diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Qeyd olunub ki, bu sahədə yeni bir mexanizmin tətbiq olunması üçün işlər aparılır. Məqsəd gələcəkdə həmin şəxslərin peşəkar və yaradıcı fəaliyyətinin, zəhmətinin, mədəniyyət sahəsində xidmətlərinin qiymətləndirilməsinin ədalətli, şəffaf şəkildə və müstəqil bir komissiya vasitəsilə aparılmasıdır. Tətbiq olunan mexanizm sayəsində bu sahədə çalışan və mədəniyyətimizin inkişafında, təbliğində xidmətləri olan şəxslər gələcəkdə layiqincə dəyərləndiriləcək.

Vətəndaşların bütün müraciətləri dinlənildikdən sonra qaldırılan məsələlər müvafiq qaydada qeydə alınıb. Anar Kərimov bir sıra məsələlərlə əlaqədar lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verib.

# "Muzey eksponatının hekayəsini sən danış"

## Nizami irsinə həsr olunmuş müsabiqənin qalibləri müəyyənləşib

Mədəniyyət Nazirliyinin elan etdiyi "Muzey eksponatının hekayəsini sən danış: Nizami Gəncəvi" hekayə müsabiqəsinin qalibləri müəyyənləşib.




Qeyd edək ki, bu, "Muzey eksponatının hekayəsini sən danış" layihəsində ikinci müsabiqədir. İlk müsabiqə 2020-ci ildə keçirilmişdi.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 yanvar tarixli sərəncamına əsasən, 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə bağlı keçirilən müsabiqənin qalibi "Şəhid ilə Xarıbülbülün məhəbbəti" hekayəsinin müəllifi Nərgiz Həşimova seçilib. "Bəhram şah yeddi gözəlin portretinə baxır" hekayəsinin müəllifi Aişə Səfərova ikinci, "Nakam sevginin xatirəsi" hekayəsinin müəllifi Ömər Məmmədzadə üçüncü yerə layiq görülüb.

Müsabiqə qaliblərinə mükafatların sentyabr ayında təqdim edilməsi planlaşdırılır.

Mədəniyyət Nazirliyi qalibləri təbrik edir və müsabiqə iştirakçılarının hər birinə təşəkkürünü bildirir.

# Azərbaycanlı rejissor nüfuzlu kinofestivalın münsiflər heyətində

Avqustun 13-də 27-ci Sarayevo Film Festivalı (Bosniya və Herseqovina) başlanıb. Azərbaycanlı rejissor Teymur Hacıyev festivalın münsiflər heyətində yer alıb. O, "Qısametrajlı Avropa filmləri" kateqoriyasında ekran əsərlərini qiymətləndirəcək.

Bu kateqoriyada münsiflər heyətinə tanınmış rumın operatoru və ssenaristi Taina Qalis və xorvat rejissor Tin Zanic də daxildir. "Qısametrajlı Avropa filmləri" kateqoriyasında 9 ölkədən 13 film yarışır.

1995-ci ildə əsası qoyulan Sarayevo Film Festivalı Cənub-Şərqi Avropanın nüfuzlu kino forumu hesab edilir. Festival avqustun 20-dək davam edəcək.

Qeyd edək ki, Teymur Hacıyev "Yara" (2013), "Şanxay, Bakı" (2015), "Duz, istiot – zövqə görə" (2018) və s. ekran əsərlərinin müəllifidir. Ötən il Kann Festivalının "Tənqid həftəsi"nin qısametrajlı filmləri arasında rejissorun "Axşama doğru" ekran əsəri də yer alıb. T.Hacıyevin prodüseri olduğu "Ayrılıqda" ("Torn") filmi 2014-cü ildə Kann Festivalının "Rejissor ikihəftəliyi" proqramına daxil edilmişdi.

**LALƏ**

# "Animafilm" festivalının proqramı açıqlanıb

## 40 ölkədən 134 film 12 kateqoriya üzrə yarışacaq

"Peri Film" MMC şirkətinin təşkilatçılığı ilə sentyabrın 3-dən 7-dək Bakıda IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçiriləcək. Uşaqlar və böyüklər üçün çəkilmiş yerli və xarici animasiya filmlərinin təqdim ediləcəyi builki festivalın mövzusu "Əlillik"dir.




Festivalın müsabiqə proqramına 40 ölkədən 134 film daxil edilib. İştirakçılar 12 yerli və xarici müsabiqə kateqoriyası üzrə mükafatlar uğrunda yarışacaqlar. Həmçinin festivalın müsabiqədənkənar və peşəkar proqramları da zəngindir. Polşa, Özbəkistan, Fransa filmləri və animasiya vorkşopları nümayiş olunacaq.

Festivalın tədbirlərinə giriş ödənişlidir. Bilet satışından əldə olunan gəlir fiziki məhdudiyyətli uşaqların ehtiyacları üçün sərf ediləcək. Biletləri bu linkə daxil olmaqla əldə etmək olar: https://hadigro.com/en/activities/3305b1f/animafilm-festivali-4-cu-animafilm-beynelxalq-animasiya-festivali

Əlilliyi olan şəxslərin festivalda iştirakı üçün ödənişsiz nəqliyyat təmin ediləcək. Öncədən qeydiyyatdan keçmək vacibdir. Tədbirdə iştirak Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları əsasında tənzimlənəcək.

Müsabiqə proqramının bütün filmləri orijinal dildə ingiliscə alt yazı ilə, bəzi xarici filmlər isə azərbaycanca alt yazı ilə nümayiş etdiriləcək.

Festivalın məqsədi Azərbaycanda animasiya sənətinin inkişafını dəstəkləmək, animasiya filmlərinin nümayişi və animasiya kinosu üzrə yerli və xarici peşəkarlar arasında təcrübə mübadiləsi üçün platforma yaratmaq, yeni Azərbaycan animasiya filmlərinin, eləcə də beynəlxalq müştərək məhsulların yaradılmasını təşviq etməkdir. Festivalın direktoru rejissor Rəşid Ağamalıyevdir.

# Qeyri-maddi mədəni irsimizlə bağlı daha dörd nominasiya

## UNESCO-ya təqdim edilib

Azərbaycan Respublikası 1992-ci ildən UNESCO-ya üzv qəbul olunub. 1996-cı ildə UNESCO ilə Azərbaycan arasında əməkdaşlıq sahəsində memorandum imzalanıb. Həmin vaxtdan etibarən ölkəmizin təşkilatla əlaqələri genişlənməkdədir.

Ötən dövr ərzində ölkəmizin 15 qeyri-maddi mədəni irs elementi UNESCO-nun müvafiq siyahısında yer alır. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Qeyri-maddi mədəni irsimizlə bağlı daha dörd nominasiya UNESCO-ya təqdim edilib.

UNESCO-ya yeni təqdim edilmiş 1 milli və 3 çoxmillətli nominasiya Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 2022-ci ildə keçiriləcək sessiyasında müzakirəyə çıxarılacaq. Bunlar Türkiyə və Azərbaycanın birgə təqdim etdiyi "Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial təmasın simvolu"; Əfqanıstan, Azərbaycan, İran, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə təqdim etdiyi "Baramaçılıq, ipəkçilik və toxuculuq üçün ənənəvi ipək istehsalı"; Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə təqdim etdiyi "Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi" çoxmillətli nominasiya faylları və "Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri" milli nominasiya faylıdır.

# Magistraturaya qəbulun nəticələri

## Bəzi proqramlar üzrə plan yerlərinin təxminən yarısı boş qalıb

Dövlət İmtahan Mərkəzi (DİM) Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri ilə bağlı bəzi statistik göstəriciləri təqdim edib.

DİM-dən bildirilib ki, müsabiqənin nəticələrinə əsasən, bu il 10337 (Azərbaycan bölməsi üzrə 9423, rus bölməsi üzrə 914) nəfər ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olub. Onlardan 3770 nəfəri dövlət sifarişi, 6567 nəfəri ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Müsabiqənin nəticələrinə əsasən, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ayrılmış 11135 yerin 92,83 faizi dolub. Bu, son illər qeydə alınmış ən yüksək göstəricidir. Ötən il müvafiq göstərici 88,4 faiz, 2019-cu ildə isə 78,1 faiz olub.

Magistraturaya qəbul 75 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Proqramlar üzrə ayrılmış plan yerlərinin dolma göstəriciləri fərqlidir. Məsələn, neft-qaz mühəndisliyi, hidrometeorologiya, geodeziya və xəritəçilik mühəndisliyi, qida məhsulları mühəndisliyi, istehlak mallarının ekspertizası, turizm, riyaziyyat, dağ-mədən mühəndisliyi, mexanika, biologiya, coğrafiya, torpaqşünaslıq və aqrokimya, balıqçılıq, bədən tərbiyəsi, ecazçılıq, MBA, nəqliyyat servisi, kosmik texnika və texnologiyalar mühəndisliyi, yanğın təhlükəsizliyi mühəndisliyi, çoxişlənən malların texnologiyası mühəndisliyi, aktyor sənəti və xüsusi təyinatlı ixtisaslara uyğun olan proqramlara ayrılmış plan yerləri 100 faiz dolub. Ancaq nəzərə almaq lazımdır ki, bu proqramların bəziləri üzrə plan yerlərinin sayı az idi və onların tam dolacağı əvvəlcədən gözlənilirdi.

Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı kitabxanaçılıq, dinşünaslıq və xoreoqrafiya sahələrinə aid 45, 51, 69 saylı proqramlara ayrılmış plan yerlərinin 40 faizindən çoxu boş qalıb. Plan yerlərinin dolma göstəricisi üzrə ən zəif nəticə Azərbaycan İlahiyyat İnstitutuna (37,5 faiz) aiddir.

# Jurnalist olmaq istəyən 760 abituriyent

## Qabiliyyət imtahanı verəcək



Dövlət İmtahan Mərkəzi avqustun 19-da ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirəcək.

DİM-dən verilən məlumata görə, imtahanda jurnalistika ixtisasına qəbul olmaq üçün internet vasitəsilə anket dolduraraq qeydiyyatdan keçmiş və III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən abituriyentlər iştirak edə biləcəklər. İmtahanda 760 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahan Bakıda və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz şəhərlərində təşkil olunacaq. İmtahan saat 10:00-da başlanır və 2 saat 30 dəqiqə davam edəcək.

Qabiliyyət imtahanında mövzular imtahanın başlanmasından bir neçə dəqiqə əvvəl Mətbuat Şurasının və KİV nümayəndələrinin iştirakı ilə seçiləcək və videobağlantı vasitəsilə imtahan mərkəzlərinə çatdırılacaq. Abituriyentlər təqdim olunmuş mövzulardan biri üzrə inşa (esse) yazacaqlar. Yazı işi abituriyentin imtahan verdiyi bölmədən asılı olaraq Azərbaycan və ya rus dilində yerinə yetirilməlidir.

Abituriyentlərə ictimai-siyasi, iqtisadi, mədəni həyat sahələrinə aid, həmçinin respublikamız, görkəmli şəxsiyyətlər, təhsil, ətraf mühit, mənəviyyat və eləcə də bütün bəşəriyyəti düşündürən qlobal problemlər haqqında müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən sərbəst mövzular təklif olunur. İnşa yazı (esse) 2–4 səhifə (ən azı 2 səhifə və ya 420 söz) həcmində olmalıdır.

№60-61 (1838)
18 avqust 2021
www.medeniyyet.az

## Mədəniyyət Nazirliyi sistemində kadr təyinatı

Mədəniyyət naziri Anar Kərimovun əmri ilə Qalib Həsənov Mədəniyyət Nazirliyinin Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsinə təyin edilib.

Qalib Şamil oğlu Həsənov 1974-cü ildə Ağcabədi rayonunda anadan olub. Azərbaycan Universitetinin beynəlxalq iqtisadi əlaqələr ixtisası üzrə bakalavr (1995) və beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə magistr (1999) pillələrini bitirib. Pakistan Xarici İşlər Nazirliyi tərəfindən İslamabad şəhərində təşkil edilmiş "Diplomatik kurs"da (1997), Koreya İnkişaf Agentliyi tərəfindən təşkil edilmiş "Bazar iqtisadiyyatı, Koreyanın inkişaf təcrübəsi" (1998), Budapeşt şəhərində "Ticarət diplomatiyası" kurslarında (1999) iştirak edib.

Əmək fəaliyyətinə 1996-cı ildə Xarici İşlər Nazirliyində başlayıb. 1999-2000-ci illərdə Azərbaycanın Pakistandakı Səfirliyində, 2000-2004-cü illərdə ölkəmizin İstanbul şəhərindəki Baş konsulluğunda müxtəlif vəzifələrdə, 2004-2009-cu illərdə Xarici İşlər Nazirliyində şöbə müdiri, 2009-2010-cu illərdə Azərbaycanın Moldovadakı Səfirliyində müşavir, 2010-2013-cü illərdə Xarici İşlər Nazirliyində şöbə müdiri, 2013-2017-ci illərdə Macarıstandakı səfirliyimizdə müşavir vəzifələrində çalışıb. Birinci dərəcəli müşavir diplomatik rütbəsinə malikdir.

## İşğaldan azad olunmuş ərazilərin bərpasına QHT-lər də töhfə verəcək

Ağdama gəlməkdə məqsədimiz erməni vandallığının izlərini gözlərimizlə görməkdir. Ermənilər son 30 ildə bu ərazidə dünyada misli görünməmiş vəhşiliklər törədiblər.

QHT-lərə Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev bu sözləri avqustun 16-da QHT nümayəndələrinin Ağdama səfəri ilə bağlı jurnalistlərə açıqlamasında deyib. Agentliyin təşəbbüsü ilə təşkil olunan səfərə 70-dən artıq QHT qatılıb.

A.Quliyev bildirib ki, ermənilərin məqsədi Azərbaycanın bu torpaqlardakı tarixini, mədəniyyətini silib yox etmək olub: "Biz inanırıq ki, Azərbaycan dövləti qısa müddətdə bu torpaqları işğaldan necə azad etdisə, eləcə də quracaq və bərpa edəcək. Ağdamın baş planı təsdiq olunub və Ağdam şəhəri dünyada ən gözəl şəhərlərdən biri olacaq. Ağdam Qarabağın iqtisadi mərkəzi olacaq. Azərbaycan xalqı bu bölgəni barış, sülh mərkəzinə çevirəcək".

A.Quliyev QHT-lərə Dövlət Dəstəyi Agentliyinin bu istiqamətdə planlarından da söz açıb. Bildirib ki, agentliyin



strategiyası və qrant siyasəti həm maddi, həm təşkilati, həm də informasiya baxımından ilk növbədə məhz Qarabağda quruculuq prosesinə yönəldiləcək: "İlk növbədə, ərazilərin minadan təmizlənməsi prosesinə diqqət yetirilməlidir. Ərazilərin minalardan təmizlənməsi bu gün həyati əhəmiyyət daşıyır. Hesab edirəm ki, xarici partnyorların cəlb olunması baxımından QHT-lərin böyük potensialı var".

Digər əsas məsələ isə Azərbaycanın haqlı mövqeyinin bir daha dünyaya çatdırılmasıdır: "Təəssüflər olsun ki, son vaxtlar Ermənistan tərəfindən Azərbaycana qarşı yeni yalan, böhtan kampaniyasına başlanılıb. QHT-lərin kifayət qədər potensialı var ki, beynəlxalq təşkilatları, xüsusilə ATƏT-i, Avropa İttifaqını, BMT-ni, Avropa Şurasını, onların digər qurumlarını bu istiqamətdə həm məlumatlandırsın, həm də onları Qarabağda quruculuq prosesinə, xüsusilə də ərazilərin minalardan təmizlənməsi prosesinə cəlb etsin".

Müşahidə Şurasının sədri artıq xarici QHT-lərdən müraciətlər olduğunu qeyd edib: "Bu istiqamətdə iş aparırıq. Xüsusilə ərazilərin minalardan təmizlənməsi ilə əlaqədar bir neçə xarici QHT ilə təmasımız var. Biz bunu dövlətlə koordinasiyalı şəkildə elə həyata keçiririk ki, effektiv olsun. Digər tərəfdən, dövlət olaraq, maraqlıyıq ki, məhz Qarabağın quruculuğunda beynəlxalq təşkilatlar, humanitar təşkilatlar yaxından iştirak etsin, həm maddi, həm təşkilati, həm də humanitar baxımdan bu prosesə töhfə versinlər. Ümid edirəm ki, agentliyin fəaliyyəti yaxın zamanlarda tam işə düşəcək. Əsas hədəfimiz, istiqamətimiz odur ki, Qarabağın quruculuq prosesində QHT-lər üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin".

### Bölgələrdən xəbərlər

## Müxtəlif səpkili tədbirlər



Şəki Regional Mədəniyyət İdarəsi Xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009) anadan olmasının 96-cı ildönümü (16 avqust) münasibətilə tədbir keçirib.

Vahabzadənin Şəki şəhərindəki ev-muzeyində təşkil edilən tədbirdə Yazıçılar Birliyi Şəki bölməsinin sədri Vaqif Aslan şairin həyat və yaradıcılığından danışıb. Şəhər 2 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin ifasında musiqi nömrələri səsləndirilib.

Regional idarənin tabeliyindəki Balakən rayon Qabaqçöl qəsəbə Folklor klubunda "Nizami poeziyası" başlığı altında tədbir keçirilib. Tədbirdə klubun işçiləri və rəqs dərnəyinin üzvləri iştirak ediblər.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzi də Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının ildönümü ilə bağlı tədbir keçirib. Tədbirdə şairə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları "Nizami Gəncəvi İli" çərçivəsində dahi şairin həyat və yaradıcılığını əks etdirən sərgi təşkil ediblər.



Yevlax şəhər MKS-nin Dəlləklər və Tərtər rayon MKS-nin Səhlabad kənd kitabxana filiallarının əməkdaşları kənd əhalisinin asudə vaxtlarının səmərəli təşkili məqsədilə oxuculara səyyar kitabxana xidməti təşkil ediblər.

Şəmkir Regional Mədəniyyət İdarəsi Kür qəsəbə Mədəniyyət evinin kollektivi Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun (1956-1993) anadan olmasının 65 illiyinə həsr edilmiş xatirə tədbiri keçirib. Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, şəhidin ailə üzvləri iştirak ediblər.

Regional idarənin Daşkəsən rayon Mədəniyyət Mərkəzi və rayon Gənclər və İdman İdarəsi Beynəlxalq Gənclər Günü (12 avqust) münasibətilə rayon gəncləri ilə görüş təşkil edib.

Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Heydər Əliyev Mərkəzində rayon gənclərinin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə film nümayiş etdirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Amsar kənd kitabxana filialı tərəfindən açıq havada "Şərqdən doğan ədəbiyyat günəşi" adlı tədbir keçirilib. Tədbirdə kitabxananın fəal oxucuları Nizami Gəncəvinin əsərlərindən parçalar söyləyiblər. Quba rayon MKS-nin 2-ci Nügədi və Şuduq kənd kitabxana filialları isə kitab mütaliəsi təşkil edib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı rayon MKS-nin təşkilatçılığı ilə "Fidanlarımızı sevindirək" adlı tədbir keçirilib. Tədbir cəmiyyət arasında autizm xəstəliyi ilə əlaqədar maarifləndirilməni artırmaq və autizmli uşaqların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə təşkil edilib.

## Vətənin qəhrəmanları unudulmur



Ağstafa Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Qazax Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Mərkəzi Kitabxanasının bir qrup əməkdaşı tərəfindən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan tibb xidməti leytenantı Adil Əfəndiyevin ailəsi ziyarət edilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin 16 nömrəli kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Məhəmməd Abdullayevin ailəsi ilə görüş keçiriblər.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzinin Sarvan Folklor evində şair Firdovsi Sarvanlının "Hər bir şəhid Vətəndir" kitabının təqdimatı keçirilib. Təqdimatda rayon rəsmiləri, millət vəkilləri, mədəniyyət işçiləri iştirak edib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Heydər Əliyev Mərkəzində Dünyamalılar kənd şəhidlərinin ailə üzvləri ilə görüş keçirilib. Çıxış edənlər xalqımıza Qələbə sevinci yaşadan qəhrəman oğulların xatirəsinə və şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkür ediblər.

Astara rayonunun Asxanakəran kəndində şəhid Milli Qəhrəman, general-mayor Polad Həşimovun büstünün açılış mərasimi keçirilib. Tədbirdə Lənkəran Regional Mədəniyyət İdarəsi, Astara Rayon İcra Hakimiyyəti, rayon Mədəniyyət Mərkəzi, Asxanakəran kənd Diyarşünaslıq klubunun nümayəndələri və şəhid ailələri iştirak ediblər.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı olan İ.Qutqaşınlının Ev-Muzeyində yerli yazıçı Şəhla Xəlilqızının "Vətən oğulları" kitabının təqdimat mərasimi keçirilib. Tədbirdə şəhid ailələri və yerli yazarlar iştirak ediblər.

Vətən müharibəsi şəhidlərinin valideynləri və yaxınları Masallı Regional Mədəniyyət İdarəsi Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Ziyarət zamanı qonaqlar muzeyin fəaliyyəti ilə tanış olub, şəhidlərlə bağlı yaradılmış guşədə sərgilənən əşyalara baxış keçiriblər.

Masallı Regional Mədəniyyət İdarəsi Vətən Müharibəsi Qəhrəmanı şəhid gizir İntiqam Əsgərlinin doğum günü ilə əlaqədar Masallı rayonunun Viləş kəndində mərasim keçirib. Əvvəlcə




2016-cı ilin Aprel döyüşlərinin şəhid giziri Nurlan Əsgərlinin və qardaşı İntiqam Əsgərlinin xatirəsinə inşa olunmuş bulağın və memorial guşənin açılışı olub. Sonra şəhid qardaşların kənd qəbiristanlığındakı məzarları ziyarət edilib. Şəhidlərin ailə üzvləri ilə görüşən idarə rəisi Bəxtiyar Qılıncov Vətən övladlarının ruhuna dərin ehtiramını ifadə edib.

**Hazırladı: N.MƏMMƏDLİ**

## Yerlərdəki turizm müəssisələri üçün aşpaz və iaşə üzrə mütəxəssis hazırlığı

Peşə Təhsili üzrə Dövlət Agentliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu və Azərbaycan Hotel Assosiasiyası birgə peşə təhsili müəssisələrində aşpaz və turizm sahəsində iaşə üzrə ixtisas təhsili alacaq tələbələrin "Turizm sahəsində dual təhsil proqramı"na başlayıb.

Proqramın məqsədi sənaye nümayəndələri ilə birlikdə təcrübə əsaslı biliklərin tələbələrə ötürülməsinə imkan yaratmaqdır.

Proqram müddətində tələbələr ilk ayı təhsil müəssisəsində keçirəcək və ilkin baza biliklərini öyrənəcəklər. İkinci aydan etibarən seçilmiş tələbələr həftə ərzində bir neçə gün peşə təhsil müəssisəsində - nəzəri biliklərə, həftənin digər qismində isə hotellərdə onlara təyin olunmuş mentorlar vasitəsilə praktiki bacarıqlara yiyələnəcəklər.

İlkin olaraq proqramın Bakı və Qəbələ şəhərlərində yerləşən peşə təhsili müəssisələrində ümumilikdə 4 qrup olmaqla tətbiqi nəzərdə tutulub. Birillik tədris müddətinin sonunda tələbələr diplom əldə edəcəklər. Proqram Bakıda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində və Bakı Turizm Peşə Məktəbində aşpaz ixtisası üzrə, Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində isə aşpazlıq və turizm sahəsində iaşə üzrə hazırlıq həyata keçiriləcək.

Dual təhsil proqramına tələbə qəbulu dövlət-özəl sektorun nümayəndələri tərəfindən müsahibə yolu ilə həyata keçiriləcək. Proqrama qatılmaq istəyən şəxslər 20 avqust tarixinədək http://portal.edu.az/ platforması üzərindən qeydiyyatdan keçərək ixtisas seçimini yekunlaşdırmalıdır.

## Universitetlərdə keyfiyyət təminatı mərkəzlərinin yaradılması

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) əməkdaşları Bakı Biznes Universitetinin koordinator olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi – EQAC" adlı "Erasmus+" layihəsi çərçivəsində təşkil olunan təlimdə iştirak ediblər.

ATMU-dan bildirilib ki, Almaniyanın Potsdam Universitetinin nümayəndələri və Filippinin San Karlos Universitetinin təmsilçisindən ibarət qrup EQAC konsorsium universitetləri olmaqla bir sıra Azərbaycan ali təhsil müəssisələrini təmsil edən keyfiyyət və əlaqəli sahədə çalışan 30 nəfərdən ibarət iştirakçıya təlim keçiblər.

Təlimlər ali təhsildə keyfiyyət mədəniyyəti, keyfiyyət təminatı sistemlərinin təsviri və praktikada tətbiq olunması, keyfiyyət təminatında rollar və iştirakçılıq kimi mövzuları əhatə edib.

## Avrasiya teatr təmsilçilərinin görüşü

### Ölkəmizi Gəncə teatrının aktyoru təmsil edib

Dünyanı cəngində saxlayan koronavirus pandemiyası, digər sahələrdə olduğu kimi, yaradıcılıq istiqamətlərinə də mənfi təsir göstərməkdə davam edir. O cümlədən teatr, onun gələcək inkişafı, pandemiya və postpandemiya dövründə səhnə sənətinin vəziyyəti dünya teatr təmsilçilərini düşündürməkdədir. Bu günlərdə işini başa vuran Avrasiya Teatrlar Birliyinin I qurultayının əsas müzakirə mövzularından biri də gələcəyin teatr mənzərəsi olub.




Xatırladaq ki, Avrasiya Teatrlar Birliyi 13 sentyabr 2019-cu ildə təsis olunub. İlk olaraq yeddi ölkəni (Azərbaycan, Türkiyə, Gürcüstan, Şimali Kipr, Özbəkistan, Ukrayna, Rumıniya) əhatə edən birlikdə hazırda 21 ölkə təmsil olunur. Hindistan, Fransa, İtaliya, İspaniya, Portuqaliya kimi ölkələr də quruma üzv olublar.

Birliyin 2020-ci ilin əvvəllərində (pandemiyadan öncə) reallaşan ilk toplantısında sədr olaraq (iki il müddətinə) Ukrayna təmsilçisi Aleksandr Kniqa, baş katib kimi Türkiyə təmsilçisi Kubilay Erdelikara, baş ofis olaraq isə İstanbul şəhəri seçilmişdi.

Pandemiya səbəbindən təxirə düşən, nəhayət, 5-8 avqust tarixində İstanbulda baş tutan qurultayda ölkəmizi Gəncə Dövlət Dram Teatrının aktyoru Yusif Cəfərov təmsil edib.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan səfərinin təəssüratlarını bizimlə bölüşən aktyor ilk qurultayın ölkə nümayəndələri ilə tanışlıq məqsədi daşıdığını bildirdi. Bununla yanaşı bir sıra vacib mövzularda, xüsusən teatr ənənələrinin inkişaf mexanizmi ətrafında geniş fikir mübadiləsi aparıldığını dedi. Qurultay 12 maddədən ibarət qərarın qəbul edilməsi ilə yekunlaşıb: "Teatr həyatı üçün vacib, maraqlı məsələlər müzakirə olundu. Bu sıraya aktyor, rejissor mübadiləsi, fərqli ölkələrdə aktyor, rəssam ustad dərslərinin təşkil olunması kimi önəmli nüanslar da daxildir. İştirakçıların hər birinin təklifi müzakirə olunur və səsverməyə qoyulurdu. Təbii ki, qəbul olunmayan, yaxud birliyin məramı ilə üst-üstə düşməyənlər də olurdu. Burada hər birimizin ən ümdə məqsədi müasir dünya teatrı və birliyə üzv ölkələrin teatr təmsilçilərinin bu prosesə inteqrasiyası idi. Sevinirəm ki, uzun illər üzərində işlədiyim layihəm qurultay iştirakçılarının yekdil rəyi ilə qəbul olundu. Bu, hər ölkədən bir aktyor dəvət etməklə ortaq tamaşanın hazırlanması və üzv ölkələrin hər birində nümayişi layihəsidir".

Həmsöhbətim bildirir ki, qəbul olunan qərarlar arasında birliyə üzv ölkələrdə ayrı-ayrı teatr istiqamətlərində ustad dərslərinin təşkili, birliyin sayt və elektron jurnalının hazırlanması da var: "Gələn il teatr rəssamları ilə bağlı ilk ustad dərsi Ukraynada olacaq. Çünki növbəti ildə ev sahibliyi Ukraynaya keçəcək. Birliyin festivalının keçirilməsi də nəzərdə tutulub. "Tələbə düşərgəsi" yaratmaq və bu layihəyə fərqli ölkələrdən tələbələrin, müəllim qismində isə rejissorların, aktyorların cəlb edilməsi kimi təkliflər də səsləndirildi".

Yusif Cəfərov pandemiyanın teatr sənətinə mənfi təsirinin də müzakirə predmeti olduğunu vurğuladı: "Hər bir ölkə təmsilçisi çıxışında pandemiyanın teatra ağır zərbələrindən danışırdı. Xüsusən inkişaf etmiş bir neçə ölkənin teatr nümayəndələri alternativ formalar, yaxud şəraitə uyğun yaradıcı təşəbbüslərə qoşulmadıqlarını və sadəcə, prosesin bitməsini gözlədiklərini dedilər. Mən isə öz növbəmdə pandemiya dönəmində də teatr əməkdaşlarının əməkhaqlarının fasiləsiz verildiyini vurğuladım. Dövlətimizin bu ağır mərhələdə də teatrı diqqətdən kənarda qoymadığını qeyd etdim. Eləcə də teatrlarımızın onlayn tamaşalar göstərməyə, tamaşaçıları ilə əlaqəni bu formada davam etdirməyə çalışdığını bildirdim".

Xatırladaq ki, qurultayda qaldırılan bir sıra məsələlər birliyin bu ilin oktyabr ayında Portuqaliyada keçiriləcək növbəti toplantısında müzakirə olunacaq.

**HƏMİDƏ**

# "CNN Türk"ün əməkdaşları Xocalı haqqında material hazırlayır

## Milli Kitabxanada dövri mətbuat nümunələri ilə tanış olublar

Azərbaycanda səfərdə olan Türkiyənin "CNN Türk" telekanalının əməkdaşları Merve Şahin və Serra Taşkıran avqustun 13-də Milli Kitabxananı ziyarət ediblər.

Kitabxananın direktoru, professor Kərim Tahirov qonaqları salamlayaraq iki qardaş ölkənin milli kitabxanaları arasında əməkdaşlıqdan söz açıb, həyata keçirilən informasiya, təcrübə və kitab mübadiləsinin hər iki tərəf üçün böyük əhəmiyyət kəsb etdiyini söyləyib. O, eyni zamanda "Nizami Gəncəvi İli" çərçivəsində Türkiyənin Ankara və İstanbul şəhərlərində dahi şairin irsi ilə bağlı kitab sərgisinin təşkili, Türkiyə kitabxanalarında və Topqapı Sarayı Kitabxanasında saxlanılan Nizami əlyazmalarının digital nüsxələrinin Azərbaycan Milli Kitabxanasına hədiyyə olunması barədə danışıb.

"CNN Türk" kanalının əməkdaşı Merve Şahin səmimi qəbul üçün təşəkkürünü bildirib və səfərlərinin əsas məqsədinin Xo-



calı qətliamı haqqında material hazırlamaq olduğunu bildirib. O, ötən əsrin 90-cı illərində Azərbaycanda nəşr olunan "Qarabağ", "Xocalının səsi", "Səhər" və digər qəzetlərdə Xocalı soyqırımı ilə əlaqədar dərc olunan materiallarla tanış olmaq üçün köməklik göstərməyi xahiş edib. Eyni zamanda Milli Kitabxananın fondunda mühafizə olunan qəzetlərdən istifadə edərək Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində iştirak etmək istədiklərini də bildirib.

Kitabxananın əməkdaşları müvafiq materialların tapılmasında və rəqəmsallaşdırılaraq qonaqlara verilməsində yardım ediblər.

Daha sonra qonaqlar Milli Kitabxananın "Heydər Əliyev guşəsi", "Beynəlxalq əməkdaşlıq zalı", "Nadir kitablar və kitabxana muzeyi" şöbəsi, kitabxana fondu ilə tanış olublar.

Direktor Kərim Tahirov qonaqlara "Azərbaycan Milli Kitabxanası: fotoalbom", "Azərbaycan xalçaları dünya kolleksiyalarında", "Karabakh ancient and beautiful", "Magical beauty Sheki" kitablarını və "Azərbaycan filmləri" CD-sini hədiyyə edib.

# Xalq artisti Vaqif Əliyev dünyasını dəyişib

Xalq artisti, teatr və kino aktyoru Vaqif Əliyev avqustun 13-də, 81 yaşında vəfat edib.



Vaqif Məzahir oğlu Əliyev 1940-cı il iyulun 31-də Bakıda anadan olub. 1958-ci ildə Azərbaycan Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayıb, kütləvi səhnələrdə çıxış edib. Sonra Azərbaycan Dövlət Teatr İnstitutunda ali təhsil alıb.

1968-ci ildə təyinatla yeni yaranan Sumqayıt Dövlət Dram Teatrına göndərilib. 32 il bu teatrda aktyor kimi çalışıb, yüzdən artıq tamaşada müxtəlif obrazlar yaradıb. 2000-ci ildən sənət fəaliyyətini Bakı Bələdiyyə Teatrında davam etdirib. Filmlərə ("Ağ atlı oğlan", "Yük", "Biz qayıdacağıq") çəkilib.

Vaqif Əliyev 1990-cı ildə respublikanın "Əməkdar artisti", 2002-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Allah rəhmət eləsin.

# Milli Kitabxananın fəaliyyəti təqdir edilir

## Kitabxananın nümayəndəsi CENL-in payız vebinarına məruzəçi təyin olunub

Avropa Milli Kitabxanaları Konfransı (CENL) təşkilatı M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına məktub göndərib.

Məktubda kitabxananın 2019-cu il üçün hesabatı nəzərdən keçirilərkən bu qurumun ictimaiyyətlə əlaqəsi və ictimaiyyətin kitabxanaya cəlb edilməsi, habelə informasiya resurslarının toplanması məqsədilə həyata keçirdiyi layihələrin müsbət təcrübə kimi qiymətləndirildiyi qeyd olunub. Buna görə də CENL-in bu ilin payızında keçiriləcək vebinarında Azərbaycan Milli Kitabxanasının ictimaiyyətlə əlaqələri və ictimaiyyətin kitabxanaya cəlb olunması, yaxud da kitabxana fandreyzinqi sahəsindəki fəaliyyəti barədə təcrübəsini digər CENL üzvləri ilə bölüşmək məqsədilə əsas məruzəçi kimi çıxış etməsi tövsiyə edilib və kitabxanadan əsas məruzəçi təyin olunması barədə xahiş olunub.

Milli Kitabxananın kitabın və mütaliənin təbliği, ictimaiyyətin kitabxanalara cəlb olunması istiqamətində həyata keçirdiyi tədbirlər – kitab təqdimatları və müəlliflərlə görüşlər, ənənəvi və virtual kitab sərgiləri, "Açıq kitabxana" layihəsi, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan 80-dən artıq fundamental biblioqrafiya və digər layihələr, ölkə ərazisində nəşr olunan bütün çap məhsullarından pulsuz məcburi nüsxələrin toplanması, ayrı-ayrı nəşriyyatlarla aparılan kitabtoplama işləri, habelə digər ölkələrin milli və universitet kitabxanaları ilə aparılan aktiv fəaliyyət və bu istiqamətdə həyata keçirilən tədbirlər əsas meyar kimi nəzərə alınıb.

Milli Kitabxana tərəfindən CENL-in bu ilin payızında keçiriləcək vebinarında əsas məruzəçi kimi kitabxana-informasiya xidməti və beynəlxalq əlaqələr üzrə direktor müavini Ədibə İsmayılova təyin olunub.

Qeyd edək ki, informasiya resurslarının toplanılması və fandreyzinq sahəsində fəaliyyət qiymətləndirilərkən Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birlikdə və Heydər Əliyev Fondunun fəal dəstəyi sayəsində 2019-cu ildən həyata keçirməyə başladığı "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi – xarici kitabxanalardan Azərbaycan ədəbiyyatı klassiklərinə aid əlyazmaların rəqəmsal (digital) nüsxələrinin ölkəyə gətirilməsi xüsusilə diqqətəlayiq hesab olunub. 2019-cu ildə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Nəsrəddin Tusi, Xaqani Şirvani, Sahib Təbrizi və digər klassik şairlərin irsi ilə bağlı 58 qiymətli əlyazmanın rəqəmsal nüsxələri ölkəmizə gətirilərək kitab şəklində çap olunub.

"Nizami Gəncəvi İli" çərçivəsində bu il həmin layihə üzrə dahi şairin yaradıcılığına aid 200-ə yaxın qiymətli əlyazmanın rəqəmsal nüsxələrinin Azərbaycan Milli Kitabxanasına gətirilməsi təmin edilib. Hazırda bu əlyazmalar üzərində iş aparılır və ilin sonunadək onların elektron məlumat bazası ictimaiyyətə təqdim olunacaq.

# Vətən müharibəsi qəhrəmanları gənc rəssamların gözü ilə

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının "Zəfərə gedən yol" layihəsi çərçivəsində təşkil olunan "Vətən müharibəsi qəhrəmanları gənc rəssamların gözü ilə" virtual sərgisinin iştirakçıları təltif edilib.



Virtual sərgidə 20-dən çox gənc həvəskar rəssamın 44 günlük Vətən müharibəsi qəhrəmanlarına həsr etdikləri rəsm əsərləri onlayn rejimdə nümayiş olunub.

Virtual sərgidə öz işləri ilə çıxış edən həvəskar rəssamlar və tədbirin təşkilinə əmək sərf edən Azərbaycan Rəssamlar İttifaqının üzvləri Elnurə və Aygün İsgəndərovlar diplom və sertifikatlarla təltif ediliblər.

Diplomları təqdim edən Respublika Gənclər Kitabxanasının direktoru Oruc Quliyev bu qəbildən sərgilərin əhəmiyyətini qeyd edib, Elnurə və Aygün İsgəndərovaların zəhmətini xüsusi vurğulayıb, onlara minnətdarlığını bildirib. Direktor kitabxananın gələcəkdə də bu səpkili vətənpərvərlik layihələrini davam etdirəcəyini vurğulayıb.

Sonra iştirakçılar Şəhidlər xiyabanını, Bakıdakı Türk şəhidliyini ziyarət ediblər.

# Mənim atam qəhrəmandır...

İkinci Qarabağ müharibəsi – 44 gün davam edən savaş və böyük Zəfəri bizə daddıran qəhrəman Vətən oğulları, qanı ilə tarix yazan şəhidlərimiz hər birimizin qürur mənbəyidir. Şanlı Qələbəmizi onların sonsuz Vətən sevgisinə, bu yolda şəhadətə yüksəlişinə borcluyuq.

Bu dərin ehtiramı xalq olaraq həm də onların yadigarlarına bəsləyirik. Onların gülüzlü övladlarına qucaq açdıqca hər birimizin könlü xoş olur, gözlərimizdə sevinc, qürur yaşları gilələnir. Bu kövrək hissi şəhid övladları ilə bağlı qatıldığım bütün tədbirlərdə yaşayıram. Belə kövrək notlu tədbirlərdən biri avqustun 13-də baş tutdu. Onu fərqli qılan bir məqam da şəhidlərin övladları ilə yanaşı valideynlərinin də bir araya gəlməsi, birlikdə yürüməsi, şəhadət dadan oğullarını, atalarını birlikdə yad etməsi idi...

Söhbət Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, eləcə də "Fire Land Production"ın Vətən müharibəsi şəhidlərinin övladları üçün həyata keçirdiyi "Mənim atam qəhrəmandır" adlı silsilə layihənin növbəti tədbirindən gedir.

Torpaqlarımız uğrunda canından keçən qəhrəmanları anmaq, onların övladlarına xalq qayğısının daimi olacağını bir daha hiss etdirmək kimi nəcib məramları ehtiva edən bu tədbir sanki fəxarətlə həsrətin təmas xətti, görüş yeri idi. Bir yanda saçları bəyaza bürünən, gözləri kədər qarışıq qürura yuva olan şəhid anaları, digər yanda isə üzlərindəki xəfif təbəssümlə gözlərimizi qamaşdıran uşaqlar sıralanmışdı.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzindən yola çıxan ekskursiya avtobuslarında şəhid övladları şəhəri dolaşaraq "Zəfər marşı"nı səsləndiriblər. Beləcə onları və hamımızı qalib edən igidlərimizi məğrur duruşları, əzmkarlıqları ilə yad etdilər.

Kənardan boylandıqca mələk üzlü balaların qürurdan qabaran sinələrini bəzəyən şəhid təsvirləri adamı ilğım kimi qarsır, duyğularını alt-üst edirdi. Şəhid övladları öz atalarının, digər uşaqlar subay



şəhidlərimizin, şəhid anaları isə öz övladlarının rəsmi həkk olunmuş və "Mənim qəhrəmanım" yazılı geyimlərdə tədbirə qatılan onlarla insana səssiz-səmirsiz öz həqiqətlərini danışırdılar. Xoşbəxt anların yadigarı olan bu təsvirlərin aydın görünməsi üçün var gücləri ilə dik dayanır, şəhid şəkilləri fonunda görünməz olmağa çalışırdılar. Nə isti avqust günəşinə, nə izdihama məhəl qoymur, elə hey ən ön sırada səf tutmağa can atırdılar.

Həmin gün "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin ərazisi, Qız qalasından içəriyə doğru uzanan meydan da bir ayrı əzəmətli, bir ayrı möhtəşəm idi. Əvvəldən qurulmuş səhnə, meydan boyunca döşənmiş xalçalar, mizana uyğun olaraq sağ və sol evlərin eyvanlarında həvəskar balaca aktyorların duruşu da günü unudulmaz etməyə hesablanmışdı.

Günəşin al şəfəqlərində bərq vuran balacalar tədbirin rəsmi hissəsinin bitməsini, deyəsən, hamıdan çox istəyirdilər. Odur ki, gah hər şeyi unudub meydan boyu uşaqları əyləndirmək üçün dayanmış "maskot" kuklalara tərəf qaçır, gah da səhnəciklər ifa edəcək həmyaşıdları olan aktyorların əlindən tutur, onları yaxından seyr edirdilər.

Tədbirin rəsmi hissəsi isə öz axarında davam edirdi. Aparıcı Lalə Azərtaş tədbirə qatılan şəhid ailələrini və digər qonaqları salamladı, şəhidlərimizin daim sevgi və ehtiramla yad olunacağını vurğuladı.

Sonra tədbir təşkilatçılarının təmsilçiləri növbə ilə mikrofon önünə keçib təəssüratlarını bölüşdülər, belə layihələrin davamlı olacağının sorağını verdilər. "Mənim atam qəhrəmandır" silsilə layihəsinin nəinki Bakıda, eləcə də ölkəmizin bütün regionlarında təqdim ediləcəyini dedilər.



Daha sonra söz həmyaşıdlarını əyləndirməyə gələn balaca istedadlara verildi. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı nəzdindəki "Oyuq" teatr-studiyasının yetirmələri səhnəcikləri – müxtəlif mövzularda şeirləri, qəhrəmanlıq motivli pyeslərdən hissləri kompozisiya şəklində təqdim etdilər.

Onlarla eyni yaşlarda olan balaca aktyorlara qarışan şəhid övladları, bir neçə dəqiqəlik də olsa, nağıllar aləminə yol aldılar, çəhrayı buludların üzərində aydın Vətən səmasında pərvazlandılar. Milli nağıl personajlarımız olan Cırtdan, Tıq-tıq xanım, Göyçək Fatma, Məlikməmməd və Qoçaq Əhmədlə sehrli aləmə qədəm qoyub şaqraq qəhqəhələri ilə nisgilli ürəklərə su səpdilər.

Həmyaşıdlarını əyləndirmək, onları teatr adlı gözəl bir aləmə aparmaq istəyən balaca aktyorlar da öz missiyalarını layiqincə yerinə yetirdilər. Ümumi ovqatın kövrək təsirində gah böyük adamlar kimi balacaları bağırlarına basıb saçlarını tumarladılar, gah da onlarla əl-ələ tutub uşaqlığın qayğısızlığında xoşbəxt oldular. Ən əsası, həmin gün orada olan hər kəsi uzaq-yaxın uşaqlıqlarına aparmağa çalışdılar.

İstəklərinə də çatmışdılar. Çünki onların müşayiətində uşaqlı-böyüklü hər kəs gah səhnəciklərə heyranlıqla tamaşa edir, gah da alqışlarla ətrafa səs salırdılar.

Tədbiri rəngarəng edən bir məqam da musiqili qonağın gəlişi oldu. Fəxri qonaq qismində tədbirə qatılan Xalq artisti Brilliant Dadaşova qəhrəmanlarımızın övladları və onların ailə üzvləri ilə öz hisslərini bölüşdü.

Sonda qəhrəmanlarımızın yaxınları müğənni ilə birlikdə səmaya ağ göyərçinlər uçurdular. Beləcə, titrək əllərindən çıxıb azadə qanad çırpan göyərçinlərin arxasından dünyaya "Müharibə olmasın! Uşaqlar atasız qalmasın!" mesajını göndərdilər.

**Həmidə NİZAMİQIZI**

# "Sənət kainatına səyahət"

## Milli İncəsənət Muzeyinin ekspozisiyasını mobil telefonda izləyin...

Qədim tarixə malik Azərbaycanın zəngin muzey kolleksiyalarının ölkəmizdə, habelə beynəlxalq miqyasda daha geniş auditoriyaya təqdim olunması prioritet məsələlərdən biridir. Bu gün hər bir muzeyin vəzifəsi yerli və xarici qonaqların, o cümlədən turistlərin həm əyani, həm də virtual şəkildə muzey kolleksiyaları üzrə eksponatlar haqqında daha dolğun və ətraflı məlumat almasına imkan yaratmaqdır.



Müasir dövrdə insanlar onlayn informasiya mübadiləsinə üstünlük verirlər. Bununla əlaqədar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və dünyaca məşhur "Samsung Electronics" şirkətinin birgə əməkdaşlığı nəticəsində Azərbaycan Milli İncəsənət Muzeyinin ekspozisiyasını bəzəyən dəyərli sənət nümunələrini əks etdirən "Sənət kainatına səyahət" adlı layihə hazırlanıb.

Mobil telefon vasitəsilə paytaxtımızın füsunkar memarlıq nümunələrindən olan Azərbaycan Milli İncəsənət Muzeyinin binası, ekspozisiyasında sərgilənən rəngarəng rəsm əsərləri, bir-birindən maraqlı xalça, heykəltəraşlıq, keramika, bədii metal və digər sənət nümunələri detallı şəkildə lentə alınaraq birsaatlıq filmdə əks olunub.

# Türkiyədən Nizami irsinə aid əlyazmaların rəqəmsal nüsxələri gətirilib

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Türkiyə Milli Kitabxanası ilə əməkdaşlığı çərçivəsində dahi şairin yaradıcılığına aid 12 əlyazmanın rəqəmsal nüsxələri ölkəmizə gətirilib.



Bu barədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən məlumat verilib.

Əlyazmanın rəqəmsal nüsxələri Nizami Gəncəvinin 880 illiyi münasibətilə kitabxana tərəfindən mərkəzə təqdim olunub.

Xatırladaq ki, avqustun 4-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rövşən Muradov və Türkiyə Milli Kitabxanasının direktoru Əli Odabaş arasında görüş keçirilib. Görüşdə Nizami Gəncəvi və Yunus Əmrə irsinin Azərbaycan, Türkiyə və digər ölkələrdə təbliği ilə bağlı fikir mübadiləsi aparılıb.

№60-61 (1838)
18 avqust 2021
www.medeniyyet.az

# Şəhid manqa komandiri



Vətənə məhəbbət, torpağa bağlılıq lap uşaq yaşlarında Kamran Ceyhun oğlu Səmədovun qəlbində özünə yer etmişdi. Elə bu saf və ülvi dəyərlərlə müstəqil həyata qədəm qoyan Kamran yalnız nəcib, xeyirxah əməllərə can atır və nə edirsə, onu insanların xoşbəxt yaşayışına yönəldir. Məhz buna görə də 1997-ci ilin 28 fevralında dünyaya göz açdığı Lənkəran rayonunun Liman şəhərində kiçik də, böyük də ona hörmətlə yanaşardı.

Kamranın 2015-ci ildə başlanan həqiqi hərbi xidməti onun gənc ömrünə yeni dəyərlər qatır. O, doğma Azərbaycanın müqəddəsliyini hər şeydən əziz tutur, ona layiqli, etibarlı, sədaqətli övlad olduğunu vicdanlı xidməti ilə sübut edir. Onun mərdliyini, Vətənə sonsuz məhəbbətini görən əsgər yoldaşları Kamranı özlərinə iftixar mənbəyi, örnək bilirlər.

Əsgərlikdən sonra da nəcib, ülvi arzularla yaşayan bu gənc Vətən torpağını bir parçasını işğal altında saxlayan düşməndən qisas almaq hissi ilə yaşayırdı. Odur ki, 27 sentyabrda İkinci Qarabağ müharibəsi başlanan gündən könüllü olaraq  xalqın mərd oğullarına qoşulub əlinə silah alır, döyüş meydanında düşmənə qarşı vuruşur. Ağır döyüşlərdə iştirak edir, bir qarış belə Vətən torpağının düşmən tapdağına çevrilməməsindən ötrü canından keçməyə hər an hazır olur. Ulu yurd yerləri qarşı-qarış azad olunduqca bu sanki Kamrana yeni güc-qüvvə verir, odun-alovun içində düşməndən ürəyincə qisas ala bilir. Oktyabrın 31-də Qubadlı rayonu uğrunda döyüşlərdə minomyot mərmisi 23 yaşlı Kamranın Vətən məhəbbətli ürəyini susdurur. Bununla da Vətən daha bir igid və ləyaqətli övladını itirir.

Kamran döyüşlərə manqa komandiri kimi qatılmışdı. Tabeliyində olan əsgərlərə qardaş münasibəti bəsləyir, həmişə də onlara deyirdi ki, Vətən müqəddəsdir, onun uğrunda həlak olanlar ölmürlər. Milyonların ürəyinə köçən şəhid Kamran da Azərbaycan var olduqca, minlərlə şəhid Vətən övladı kimi, onun da adı dillərdə dastana dönəcək.

Qalib şəhidimiz ölümündən sonra dövlət başçısının sərəncamı ilə “Qubadlının azad olunmasına görə” medalına layiq görülüb.

Ruhu şad olsun.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# “Alov” ləqəbli tankçı

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfər dövlətçilik tariximizə misilsiz qəhrəmanlıq səhifəsi kimi yazıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu. Qüdrətli Ordumuz doğma torpaqlarımızı yağıdan təmizləmək uğrunda ruh yüksəkliyi və yüksək peşəkarlıq nümayiş etdirdi, düşmənə sarsıdıcı zərbələr vurdu, tarixi ədaləti bərpa etdi.

Azərbaycanın üç minə yaxın qəhrəman övladı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı, minlərlə igid qazi adını qazandı. Torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda şəhid olmuş Vətən övladları bu müqəddəs savaşın əbədiyyətədək yaşayacaq qəhrəmanlarıdır. Onlar qısa ömür yaşasalar da, mərdlikləri ilə gəncliyimizə örnək oldular. Belə fədakar oğullardan biri də şəhid gizir Budaqov Rufiz Şirzad oğludur.

Rufiz Budaqov 12 iyul 1977-ci ildə Ordubad rayonunun Tivi kəndində ziyalı ailəsində anadan olub. 1984-1994-cü illərdə kənddəki orta məktəbdə təhsil alıb. Məktəb illərində yüksək əxlaqi-mənəvi keyfiyyəti, vətənpərvərliyi, fiziki hazırlığı ilə seçilib, pedaqoji kollektivin və şagird



yoldaşlarının hörmətini qazanıb. Birinci Qarabağ savaşında erməni qəsbkarlarının torpaqlarımızı işğal etməsi hamı kimi Rufizin də mənəvi dünyasını yaralamışdı. Vətənə məhəbbət, erməni vandallarına qarşı nifrət, torpaqlarımızın işğaldan azad edilməsi, günahsız soydaşlarımızın qisasını almaq arzusu onun hərbçi peşəsini seçməsinə vəsilə olmuşdu. O, 1995-1997-ci illərdə həqiqi hərbi xidmət keçdikdən sonra əsgər geyimini çıxarmamaq qərarına gəlir. 1998-1999-cu illərdə tank komandirliyi üzrə kurslarda iştirak edir, bu ixtisasa yiyələnir. 1999-cu ildən gizir rütbəsində tank komandiri kimi xidmətini davam etdirir. 2004-cü ildə səhhətində yaranan problemə görə təqaüdə göndərilir. Tam müalicədən sonra 2012-ci ildə yenidən hərbi xidmətə qayıdır.

Rufiz Budaqov 2016-cı ilin Aprel döyüşlərində iştirak edir. Göstərdiyi igidliyə görə yoldaşları arasında “Alov” ləqəbi ilə məşhurlaşır, rəğbət qazanır. O, xidməti fəaliyyətində nizam-intizamı, verilən tapşırıqların vaxtında və dəqiq yerinə yetirməsi ilə seçilir. “Qüsursuz xidmətlərə görə” medalının 3-cü və 2-ci dərəcələri, eləcə də 2018-ci ildə “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı ilə təltif olunur.

2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ savaşı başlayanda Rufiz Budaqov Murovdağ yüksəkliyi uğrunda şiddətli döyüşlərdə iştirak edir. Burada da peşəkar tank komandiri kimi döyüş tapşırıqlarını dəqiqliklə yerinə yetirir. Haqq savaşımızın 3-cü günü – sentyabrın 29-da şəhidlik zirvəsinə ucalır. Rufiz oktyabrın 2-də Bakıda II Fəxri xiyabanda dəfn olunub. Şəhid tankçının iki qızı, bir oğlu yadigar qalıb.

Dövlət başçısının müvafiq sərəncamları ilə gizir Rufiz Budaqov ölümündən sonra “Qarabağ” ordeni, “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Toğrul XƏLİLOV**
**AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru**

# Nizami Gəncəvi fəlsəfi dünyasında insan amili və söz məfhumu



**İFTİXAR**
**Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

Dahilər öz dühaları ilə doğulan, əlahiddə istedada malik, fenomen qüdrət sahibi olan insanlar, təfəkkürü, zəkanı dəyişə bilən, insan həyatını və kainatı formalaşdırmaq istiqamətində çevriliş etmək qabiliyyətinə malik, cəmiyyəti istənilən şəkildə yenidən qurmağa qadir olan böyük şəxsiyyətlərdir. Belə insanlar öz varlıqları, zəka və idrakları ilə yaratdıqları möcüzələr hesabına hər zaman, hətta özlərindən sonra belə, həyatın və cəmiyyətin şah damarında qaynar vəziyyətdə cövlan etməkdədirlər.

Onlar dünyaya gələrkən elə bir işıq seli ilə gəlir və özləri ilə elə bir yüksək enerji gətirirlər ki, həmin işıq seli və enerji öz iti sürətli cərəyan axını ilə atom enerjisindən də güclü, qüdrətli potensiala malik təsir qüvvəsi ilə bütün ətrafındakıları öz ovsun məhvərinə salır və sehrləyirlər. Bu sehr əbədiyaşarlıq qazanmış əlahiddəlik imkanına malik, tükənməyən bir güclü qüvvədir. Çünki o, hər dəfə ona müraciət olunduqda, özünü motivasiya edə, yeniləyə bilən qüdrət daşıyıcısıdır. Və dahilər zamanın və tarixin idarəetmə, yeniləmə, dəyişdirmə imkanına malik xüsusi kodları olan funksional “termin”ləridir ki, o “termin”lər vasitəsilə tarixi gerçəkliklər özünəməxsus fəlsəfi çəki və yüklə dolu, dərin məzmun və mahiyyət kəsb edən zəngin, mənalı çalarlarla cəmiyyətin inkişafını təmin edir... Bütün elmi, fəlsəfi cərəyanlar və nəzəriyyələrin də məhz dahilərin zəka məhsulu olduğu aşkardır.

İbtidai insanların cəmiyyəti irəli aparan bizə məlum olmayan şəxsiyyətlərindən başlayaraq, müqəddəs kitabların müəllifləri və eramızdan əvvəl dünyaya gəlmiş dahilərdən – Arximed qanununun yaradıcısı Arximed (e.ə. 287-212), materialist fəlsəfənin banisi Demokrit (e.ə. 460-370), klassik yunan filosofu Sokrat (e.ə. 469-399), metafizika, etika, estetikanın müəllifi Platon (e.ə. 427-347), “Binar nəzəriyyəsi”nin banisi Aristotel (e.ə. 384-322), Pifaqor teoreminin yaradıcısı Pifaqora qədər (e.ə. 570-490), daha sonra bizim eramızda doğulmuş, dünya elminə böyük töhfələr vermiş, Ətalət qanununun yaradıcısı Q.Qalileydən (1564-1642) bu yana, ümumdünya cazibə qanununun banisi hesab edilən İ.Nyuton (1643-1727) və “Nisbilik nəzəriyyəsi”ni yaradan A.Eynşteynə (1879-1955), habelə Qərb elminin inkişafında əsas rol oynamış Şərq dahilərindən Məhəmməd Əl Xarəzmidən (780-850) üzü bəri, Əl Fərabi (870-950), İbn Sina (980-1037), Ömər Xəyyam (1048-1131), İbn Rüşd (1126-1198), Mövlana Cəlaləddin Rumi (1207-1273), Fəxrəddin Razi (1149-1210), Nəsirəddin Tusi (1201-1274), Qütbəddin Şiraziyə (1236-1311) və zəmanəmizə qədər bütün dahilərin dühaları təsdiq edir ki, bəşər tarixində dünyaya gəlmiş həmin qadirlər öz ilahi qüdrətləri ilə ərsəyə gətirdikləri müxtəlif cərəyan və nəzəriyyələr hesabına elmdə tərəqqiyə yol açmış, dünyanın düzənini qurmuş, zaman-zaman dəyişdirmiş, ən uyğun gedişata formalaşdırmış və bu gün də bu yol davam etdirilməkdədir. Həmin nəzəriyyələrdən biri də “Qeyri-səlis məntiq nəzəriyyəsi”dir (nəzəriyyənin banisi – azərbaycanlı Lütfi Zadə) ki, bu nəzəriyyəyə söykənən müasir elmi-texniki sahə tam yeni bir mərhələyə qədəm qoymuşdur. Bu elə bir nəzəriyyədir ki, yuxarıda sadaladıqlarımızın hər birini özündə cəmləşdirmək qüdrətinə malikdir. “Qeyri-səlis məntiq nəzəriyyəsi” ətrafında bu gün əhatəli düşüncələrlə həmin nəzəriyyənin mahiyyətini dərk etməyə çalışarkən görünən mənzərə onu sübut edir ki, adıçəkilən nəzəriyyə tarixə məlum olan bütün nəzəriyyələrdən fərqli cəhəti ilə insan idrakında ən qədim zamanlardan yer tutmuş və hətta bütün nəzəriyyə və cərəyanların yaranmasına səbəb olmuşdur. Belə ki, hələ ortaya çıxmadığı vaxtlardan etibarən, şüuraltı məkanda bünövrə salmış öz enerji qüdrəti ilə ibtidai insanların seçilmişlərinin praqmatik düşüncələrinin və dahilərin dühasının realizə olunmasında sövq-təbii hərəkətdə olmuş, daim onların yenilənmə mexanizminə təkan vermişdir. Çünki “Qeyri-səlis məntiq nəzəriyyəsi” elə elmi çoxluqları özündə cəmləşdirən zəngin bir fenomendir ki, onun cövhərində çoxxətlilik, çoxşaxəlilik, əsrarəngizlik bolluğu mövcuddur. Ən qədim zamandan bu günə qədər bütün alimlər, nəzəriyyəçilər, cərəyançılar öz kəşflərini ortaya qoyarkən, özləri də hiss etmədən məhz həmin nəzəriyyənin təhtəldə yerləşən potensialı ilə, elmdə və tərəqqidə qeyri-səlis mahiyyət kəsb edən, yəni, ənənəvi olmayan, ölçülərə sığmayan, zamanın və mühitin tələblərini arxada qoya bilən, yuxarıda qeyd edilən nəhəng elmi sıçrayışlara imza atmışlar. Sadə dillə desək, “Qeyri-səlis məntiq nəzəriyyəsi” bütün nəzəriyyələrin və cərəyanların əmələ gəlməsi üçün məhz insan idrakının dərin qatlarında yerləşən və təfəkkürü daim hərəkətə gətirən vəhy dolu şüuraltı enerjidir. Həmin enerjini həmyerlimiz Lütfi Zadə (1921-2017) 1950-ci illərdə, məhz “Qeyri-səlis məntiq nəzəriyyəsi” adlandıraraq dünyaya bəyan etmiş və elmi tərəqqinin çoxxəti inkişafına təməl atmışdır. O vaxta qədər Lütfi Zadənin özünə də naməlum olan, lakin təhtəlində daim onu yeniliyə doğru aparan və nəhayətdə boy verib şaxələnən sözügedən nəzəriyyənin kəşfindən sonra geriyə – tarixə nəzər yetirdikdə tam anlaşılır ki, həqiqətən də, dahilərin yaşayış boyu yaratdıqları çoxlu sayda nəzəriyyələr və cərəyanlar məhz insan idrakında özünə yer tutmuş həmin triumfal enerjinin qüdrəti sayəsində ərsəyə gəlmişdir.

Yalnız bir həqiqət ortadadır ki, yüz illərdən, min illərdən bir dünyaya gələn dahilər hər millətə nəsib olmamışdır. Azərbaycan xalqı isə o xoşbəxt xalqlardandır ki, onun dahiləri vardır. Bunların ən parlaq simalarından biri, XII əsrdə dünyaya göz açmış Əbu Məhəmməd İlyas ibn Yusif – Şeyx Nizami Gəncəvidir (1141-1209). Bəşəriyyət belə bir dahini yalnız onun öz dühası ilə tarixin səhifələrində qoruyub saxlayır ona görə ki, zəmanəsinin və bütün zamanların söz tanrısı Nizami Gəncəvi də məhz qeyri-səlis düşüncə sahibi idi. O, “Aş bu mavi günbəzi, o qədər yüksəl ki, sən, Boynunu dar həlqədən xilas edə biləsən” kimi, ölçüləri işıq sürəti ilə aşıb keçən geniş əhatəli fikri ilə dar həlqədə məhdudiyyəti, konkretliyi, yəni “Binar nəzəriyyəsi”nin qanunlarını, mavi günbəzdən, yəni göylərdən o tərəfdə isə hüdudsuzluğu, sonsuzluğu göstərir və bu məntiqi fikir isə yalnız qeyri-səlis anlayışlı düşüncənin məhsuludur. “Çox gəzdi, çox dolaşdı ayaqyalın xəyallar”la isə işıq sürətindən də iti dinamikası olan xəyalların qət edə biləcək məsafələrin sonsuz olduğunu ifadə edir. “Birləşdirib yoğurdu, qaynatdı suyla odu” fəlsəfi qayəsi Nizaminin qeyri-səlis məntiqlə düşünən dahi olduğunun açıq şəkildə göstəricisidir.

Əksər elmlərə dərindən vaqif olan ölməz şairin təfəkkür və təxəyyül aləmində konkret ölçülər, konkret rənglər, sözün ecazkar səmasında sərhəd və ya hikmətlər kəhkəşanında fikir məhdudiyyəti yoxdur. “Ağbirçək bir dayədir sənə süd verən rüzgar” və ya “Tutuquşu güləndə çatladı qəndin bağrı”, eləcə də “Düşüncənin gözünə işıq gətirən Tanrı” kimi, rəng verib-rəng alan təşbehləri, “Günə, Aya don biçdi öz əlilə Yaradan, Birinə ağ ipəkdən, o birinə qaradan”, yaxud “Ulduzlarla sildi o, göydən hisi, dumanı” bənzərsiz poetik lövhələri, “Gecə rəngli torpağa verdi gündüz badəsi, Tökdü daşın ağzına neçə şəfəq qətrəsi”, ya da “Yeddi düyün vurmaqla qandalladı yerləri”, eləcə də “Gedirdi, bir qədəmi o birindən xəbərsiz” və ya “Görünməyən Tanrını aşiq gözüylə gördü” və “Həzrət Məhəmməd onu başqa ölçüylə gördü: Ürək, idrak gözüylə, zəka gücüylə gördü” dərin fəlsəfi fikirləri apaydınca sübuta yetirir ki, Nizaminin düşüncə fəzasında yalnız əsrarəngizlik, nəhayətsizlik, riyazi sonsuzluq, hüdudu görünməyən geniş bir kainat ehtişamı mövcuddur. Gəncəvinin əsərlərindəki forma rəngarəngliyi və məzmun zənginliyi də onun qeyri-səlis məntiqlə düşünən mütəfəkkir olduğunu isbatlayır. Ona görə də Nizaminin əsərləri bütün parametrlərdən özünün qeyri-adi təcəssümü və zəngin bədii keyfiyyətə malik poetik hüsnü ilə zirvələrdə bərqərardır.

Dünya ədəbi aləminə iyirmi min beytə yaxın bir divan (təəssüf ki, bu divanın yalnız yüz iyirmiyə yaxın beyti günümüzə qədər gəlib çatmışdır, bununla bağlı öz qənaətimi irəlidəki sətirlərdə diqqətə təqdim edəcəyəm) və beş nəhəng poema bəxş etmiş dahi Şeyx Nizami Gəncəvi lirik irsinin toplandığı divanının və poemalarının bədii qüdrəti ilə yanaşı, məzmun və forma gözəlliyi ilə ədəbi mühitdə elə bir çevriliş etmişdir ki, bu gün də o, bir Günəş misallı cövhəri ilə saysız-hesabsız “ulduzlar kəhkəşanı”nın onun ətrafında dövrə vurmasının təminatçısına çevrilmişdir. XII əsrdən üzü bəri yazıb-yaradanları yalnız ona boylanmaq və yüksələ bilməmək məcburiyyətinə məhkum etmişdir. Bu üzdən də Nizami Gəncəviyə Şərq ədəbi kainatının və eləcə də, Qərb poeziya dünyasının Günəşidir – demək doğru hesab olunur.

Məsnəvi formasında yazdığı “Xəmsə” adlandırılmış poemalar sadəcə bir ədəbi sənət nümunəsi deyil, çəkisi hesaba gəlməyən, poeziya ölçüsünü müəyyən etmək üçün ölçü vahidi mümkün olmayan zəngin bir xəzinədir. Dahi sənətkar bu zəngin xəzinə ilə bəşər tarixinə, insan fenomeninə, ümumən dünya xalqlarına elə bir sərvət bəxş etmişdir ki, o sərvət xərcləndikcə çoxalır, oxunduqca yenilənir, geniş fəzalarda ünyetməz üfüqlərdən şöləndiyini isbat edir: “Düyün açılmayınca qaralırdı hələ də, Gecənin zülmət saçı gündüzlərin əlində. Göydə min-min gövhəri sapa düzdü Yaradan, Sildi yoxluq tozunu gecənin saçlarından.”... Həqiqət budur ki, ona hər müraciət edildikcə, insan təfəkküründə daha fərqli və daha geniş fəlsəfi-estetik, zəngin poetik ümman yaranır: “Bu torpağın qanını göstərdi bir gül ilə, Əqlin nəbzini tutdu ürəyin öz əlilə”, yaxud, “İdrakınla oxudun hətta yazılmayanı, Əqlinlə işıqlatdın beyin adlı cahanı” və sair sənət inciləri deyilənlərin parlaq nümunələrindəndir...

Gəncəvinin əsərləri tarixi olaylar, hekayətlər və həyat hadisələri zəminində yaransa da, o əsərlərin hər birində müəllifin təxəyyül potensialının ərsəyə gətirdiyi geniş meydan ön planda dayanır. Dünyanı cəmiyyətin anlaya bilməyəcəyi dərin qatlardan böyük ustalıqla dərketmə qabiliyyəti, həyatın sirlərini hər kəsdən fərqli, həssas müşahidə bacarığı ilə görə bilmə fərasəti, böyük istedadın zəngin təşnəsinin süzüb göndərdiyi əfsunlu sehri və nəhayət, vəhy dolu fəhmi Nizaminin özəl keyfiyyətidir. O, coşqun zəka enerjisi və ziya dolu poetik nuru ilə əsərlərini durmadan yüksələn dinamika ilə yaratmışdır. Ona görə də həmin əsərlər öz cövhərində yer tutan fəlsəfi dərinliyi, məzmunlu və yüksək elmi, bədii, estetik mahiyyəti, ictimai mövqeyi, müdrik idrakdan doğan böyük hikməti, bütün bunlarla yanaşı, anlaşılan sadə strukturu və mürəkkəb ziddiyyətlərlə qaynayan hadisələrin  cərəyan etdiyi süjet zənginliyi və həm də “Göylər vuran düyünü, soruş, yerdə kim açar? Ayağını göylərə cəsarətlə basanlar”, eləcə də “İldırım kimi gülmək, sonra dərddən ağlamaq, Ani bir qığılcıma döndərir ömrü ancaq” misallı dərin məzmunlu həzin poeziyası ilə, ruha bənzərsiz qida verən tükənməz xəzinə kimi ümumbəşəri dəyərlər miqyasına yüksəlmişdir.

Gəncəvinin əsərlərində – istər divanında, istərsə də poemalarında insan amili və söz məfhumu əsas predmetlərdən biridir. O, əsərlərində cərəyan edən hadisələri dərin mənalı sözlərlə və ibrətamiz hikmətlərlə rövnəqləndirərək İnsan meyarı ətrafında cilalamış, bütün hadisələri İnsanın dəyərinin yüksəldilməsi istiqamətində birləşdirmişdir. Böyük mütəfəkkir öz düşüncə və təxəyyülünün dərin qatlarında İnsan varlığının mahiyyətinə necə sonsuz sevgi ilə yanaşırsa, sözün qüdrətini də eyni dəyərdə yüksək tutur. Təkcə “Poladdan dağ olsa, yenə də, inan, Onu parça-parça dağıdar insan”, yaxud “Uluların yolunun gərək qulu olasan, Ülviyyətə yüksəlib, sən də ulu olasan”, eləcə də “Sözün də su kimi lətafəti var” və ya “Söz bayraqdan daha çox əldə eyləyir zəfər, Qılıncdan daha artıq qalxıb alar ölkələr” kimi dərin mənalı hikmətlərlə dolu olan paralel incilər deyilənlərin bariz nümunəsidir. Belə kəlamlarla dahi şair insanı ülvi, güclü, dözümlü, qüdrətli, nurlu və dürlü hesab etməklə onu zirvələrə ucaldır. “İnsana arxadır onun kamalı, Ağıldır hər kəsin dövləti, varı” – deyərək, insanı ağıla, kamala dəvət edir. Yəni, Nizami deyir ki, cəmiyyətin yüksəlişi insanın kamilliyinə bağlıdır. Başqa yol yoxdur. Həm də, “Vurub yıxmaqla deyil ağıllılıq, unutma, Gücünü ədalətdən heç zaman uca tutma!” – məntiqinə söykənməyi tövsiyə etməklə diqqəti, qüdrətin yalnız ədalətdə cəm olduğuna yönəldir.  Nizami “Dəmiri aynatək parladan insan, Pası silməlidir öz vicdanından!” hikməti ilə isbat edir ki, həqiqətlər, ədalətlər kamil insanın vicdanında öz haqqına qovuşa bilir və ona görə də insan öncə mütləq öz vicdanını saflaşdırmalıdır. “Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət, Yer üzünün fatehi ədalətdir, ədalət” fəlsəfəsi ilə insanın, ruhu və vücudu ilə yalnız ədalət təşnəsində yoğrulmasını, bununla da bütün meyarların fatehinə çevriləcəyini təşviq edir. Və “Haqq sözü eşitmək istəməyənlər Ağlını itirib öləcək hədər” dərin məzmunlu kəlamı ilə böyük mütəfəkkir bir daha inandırır ki, ədalət olan yerdə hər zaman həqiqət vardır və fəth olunmaz zirvələr yalnız haqqın həqiqəti və ədalətin qüdrəti ilə fəth olunur.

Budur Şeyx Nizami Gəncəvi idrakının fəlsəfi dərinliyi. Eyni zamanda, dahi sənətkar insan amili ilə yanaşı, insanı ucaldan sözü də su kimi saf, təmiz, şəffaf, lətif dəyərlərlə yüksəldir. İnsanla və insanda sözü, sözlə və sözdə insanı kamil həddə çatdırır, onların fəlsəfi mahiyyətini, bir-birinə qırılmaz tellərlə bağlılığını və İnsan–Söz tandeminin bərqərar olduğu zirvəni aydınladır.

“Sözün qanadları var, quş kimi incə-incə, Dünyada söz olmasa nəyə gərək düşüncə”, “İncitək sözlər seç, az danış, az din, Qoy az sözlərinlə dünya bəzənsin”, eləcə də, “Sözündə çoxluğa qoyma yer olsun, Birin yüz olmasın, yüzün bir olsun” məfkurəsi ilə ölməz şair dövrünün bütün ziddiyyətlərini, çaxnaşma və savaşların törətdiyi dəhşətli fəsadları məhz cahil insanların bəd əməllərində görür və ona görə də cəmiyyətin bu ümumbəşəri bəladan xilasına yalnız kamil insan yetişdirməklə nail olmağa çalışmağı, insana, az danışmaqla çox fikir ifadə edən məzmunlu sözlər söyləməyi təlqin edir... Kamillik fəlsəfəsini belə gözəl hikmətlərlə və poetik ecazla ifadə edən dahi Nizami İnsan amilini, “Səbri, hövsələni unudan insan, Ağıldan, kamaldan açmasın dastan”, “Ucalmaq istəsən, bir kamala çat, Kamala ehtiram göstərir həyat” və ya “Kamil bir palançı olsa da insan, Yaxşıdır yarımçıq papaqçılıqdan” zirvəsində bərqərar edir. Hansı məsləyə xidmət etməsindən asılı olmayaraq, sözün dəyəri ilə İnsanı, İnsanın simasında cəmiyyəti kamil olmağa çağırır. Zaman irəlilədikcə bu məzmunda çağırış özünün lətafəti və şərafəti ilə daha da məlhəm ola biləcəyini göstərir. Bu amillər sübuta yetirir ki, Nizami Gəncəvi məhz ona görə dahidir ki, onun məfkurəsi bütün dövrlərdə olduğu kimi, hər zaman aktualdır və öz aktuallığını həmişə qoruyub saxlayacaq.

*(davamı var)*

# Müslüm Maqomayev: milyonların sevdiyi şəxsiyyət

*1996-cı ilin 17 avqustu idi... 11 yaşım vardı... Həmin gün digər günlərdən elə də fərqlənmirdi. Televiziyada C.Rossininin "Sevilya bərbəri" operasından Fiqaronun kavatinası ifa edilirdi. İfaçı ucaboy, yaraşıqlı və səhnədə olduqca sərbəst idi. İlk dəfə hansısa bir müğənni bu qədər diqqətimə səbəb olmuş, ifası ilə məni ovsunlamışdı. İfa bitdi. Sehrli yuxudan oyanan kimi müğənninin kimliyini öyrənmək istədim. Axı ifası qədər onun kim olması da mənə maraqlı idi. Atamdan müğənninin adını soruşduqda "Müslüm Maqomayevdir ifa edən. Tanrı ona böyük istedad bəxş etmişdir. Onun ifaları təkcə Azərbaycanımızda deyil, bütün dünyada sevilir. Həm də pianoçu və gözəl bəstəkardır" dedi.*



İfa mənə o qədər təsir etmişdi ki, səhərə kimi ariyanı uydurduğum sözlərlə oxumağa çalışdım. O gündən sənətkarın həm şəxsiyyətinin, həm də sənətinin pərəstişkarı oldum. Zamanla sənətkarın səsinin odu-alovu mənim də sənət və həyat yolumu işıqlandıraraq istiqamət vermiş oldu. Müslüm Maqomayev səsinin işığı ilə yaradıcılıq yolumu aydınlatdı.

2016-cı ildə Moskvada keçirilən Müslüm Maqomayev adına Vokalçıların IV Beynəlxalq Müsabiqəsində qələbəm yaradıcılığımda ən parlaq günlərdən biri idi. Böyük sənətkarın adına müsabiqədəki müvəffəqiyyətim məni daha da ruhlandıraraq qazanacağım yeni nailiyyətlərin başlanğıcına çevrildi.

Uğurlarımın açarı qismində əfsanəvi ifaçının Nəbi Xəzrinin sözlərinə bəstələdiyi "Baharlı yurdum, Azərbaycan" mahnısını vurğulamaq istərdim. Bu mahnını Azərbaycanda və xaricdə keçirilən yüzlərlə konsertdə ifa etmişəm. 20 ildən çoxdur ki, həmin mahnını səsləndirirəm. M.Maqomayevin digər insanların da həyatında oynadığı rolu bir anlıq düşünsək, bu məqam onun yüksək keyfiyyətlərə malik böyük şəxsiyyət olmasının göstəricisidir.

Əfsanəvi sənətkarın yaradıcılığı məndə təkcə incəsənətə maraq oyatmadı, eyni zamanda məni musiqi elmi ilə də məşğul olmağa sövq etdi və elmi yaradıcılığa başlamağıma səbəb oldu. Elə kitab, jurnal və qəzetlərlə də onun sayəsində yaxından dost oldum. M.Maqomayevin yaradıcılığı ilə bağlı bütün suallara məhz araşdırmalarımla cavab tapa bildim. Taleyin bir qismətidir ki, belə böyük şəxsiyyətin yaradıcılığını ilk dəfə elmi əsaslarla təhlil etmək mənə nəsib oldu...

Müslüm səsi ilə gənc yaşlarından milyonları öz əsirinə çevirmişdi. Hələ 1962-ci ildə Helsinkidə keçirilən VIII Gənclər və Tələbələrin Beynəlxalq Festivalında qazandığı qələbənin səs-sorağı bütün SSRİ-yə yayılmış və 20 yaşlı gənc saysız-hesabsız dinləyicinin sevimlisi olmuşdu. Bu həm də yaradıcılıq Olimpinə gedən yolun başlanğıcı və həmin dövr üçün fenomenal hadisə idi. Amerikada, Avropa ölkələrində, Uzaq Şərqdə verdiyi konsertlərdə stadionlara, konsert salonlarına sığmayan dinləyici kütləsi onu eşitmək, görmək istəyirdi. Sənətkara olan məhəbbət və rəğbət o qədər böyük idi ki, hətta onun maşınını belə əllərində aparırdılar.

Müslüm Maqomayev musiqiçi ailəsində, dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin yaxın dostu, məsləkdaşı Müslüm (Əbdülmüslüm) Maqomayevin ailəsində dünyaya göz açmışdı. Sanki onun da babası kimi böyük musiqiçi olacağı əvvəlcədən müəyyənləşdirilmişdi. Ona babasının adının verilməsi əbəs yerə deyildi... Lakin Müslüm Maqomayevin milyonlarla insanın qəlbini fəth edəcək əfsanəvi müğənni olacağı ailəsində kimsənin ağlına belə gəlmirdi. Maqomayevlərə məxsus bütün xüsusi bacarıqlar balaca Müslümdə öz əksini tapmışdı. O da kiçik yaşlarından babası kimi əsərlər bəstələyir, atası kimi rəsm çəkirdi. Anasından isə ona oxuma istedadı keçmişdi. Lakin tezliklə musiqi ilə bağlı olan uşaqlıq əyləncələri onun həyatının, yaradıcılığının bir parçasına çevrildi.

O, saatlarla Titta Ruffo, Tita Qobbi, Benyamino Cili, Enriko Karuzo kimi dünya musiqi titanlarının ifalarını dinləyir, qozbel Riqolettonu, çılğın Fiqaronu bağlı qapılar arxasında yamsılayırdı. Elə bu da onu sənətə, opera teatrına aparan yol oldu. Qəlbində musiqiyə, vokal ifaçılığı sənətinə olan böyük məhəbbəti Müslüm Maqomayevi sənətkarlığın zirvəsində qaldırdı.

Opera səhnəsində yaratdığı Fiqaro, Skarpiya obrazları dillər əzbərinə çevrilərək yaddaşlarda əbədi iz buraxdı. O, bu partiyaları keçmiş Sovet İttifaqının, demək olar ki, bütün şəhərlərində oynadı. Lakin yenə də mahnılar sənətkarın əsas ifadə rəmzinə çevrildi. O, kiçik mahnılara bütün ömrünü sığdıra bildi.

Mahnı və Müslüm... Bu iki ifadəni bir-birindən ayırmaq qeyri-mümkündür. Onlar bir-biri ilə səsləşərək böyük sənətkarın mənalı ömrünün mahiyyətinə çevrildi. Sənətkar mahnılarında sülhü, məhəbbəti, dostluğu təbliğ edirdi. Onun oxuduğu mahnılar bir himn kimi bütün Sovet İttifaqına ildırım sürəti ilə yayılır və dillər əzbərinə çevrilirdi. Müğənninin ifasında səslənən "Bella çao", "Ana", "Dünya – məhəbbətin vətəni", "Xirosimo", "Bakı payızı", "Buhenvald harayı", "Bakı", "Dolalay", "Sən məhəbbət nədir, bilirsən?" və onlarla digər mahnılar həmin dövrün ən gözəl musiqi nümunələri kimi gənc nəslin musiqi zövqünü formalaşdırırdı. Müslüm hamı üçün oxuyurdu: stadionda, məşhur konsert salonlarında, sadə insanlar üçün, rəhbər vəzifələrin nümayəndələri üçün... O, musiqisi, məxməri bariton səsi, yüksək səhnə mədəniyyəti ilə hamının qəlbində iz qoymağı bacarırdı. Opera teatrları, qastrollar, bir-birini əvəzləyən səhnələr, sonsuz dinləyici məhəbbəti... Budur mahnılar qanadında keçən əsl sənətkar ömrü...

Müslüm Maqomayevin ifa tərzindən geyimlərinə qədər hər bir hərəkəti dövrün gəncliyinin həyat tərzinə çevrilirdi. Əvvəldə qeyd etdiyim kimi, o, milyonların idealı, gəncliyin, eləcə də yüksək sənətkarlığın simvolu idi.

Çox zaman Azərbaycandan kənarda yaşasa da, həmişə qəlbi böyüyüb boya-başa çatdığı Bakı ilə döyünürdü... Bəstələdiyi "Odlar yurdu", "Baharlı yurdum, Azərbaycan", "Əlvida, Bakı!" mahnıları ilə Vətəninə olan sonsuz məhəbbətini tərənnüm edirdi. Ülvi məhəbbətdən yaranan "Baharlı yurdum, Azərbaycan" mahnısı doğma Vətəni böyük ürəklə vəsf edən himn deyilmi?

Müslüm Maqomayev həm də aktyor, publisist və ictimai xadim idi. Sənətkarın musiqili filmlərdə, "Nizami" bədii filmində canlandırdığı obraz onu fenomenal şəxsiyyət kimi ifadə edirdi. Öz məqalələrində estrada sənətinə bir elm xadimi kimi yanaşmasını bildirir, fəlsəfi və estetik görüşlərini əks etdirirdi.

Yaşasaydı, 17 avqustda 79 yaşı tamam olacaqdı. Filmtək keçən ömrü sənətkarlıq rəmzi kimi musiqi salnaməsinin bir parçasına çevrildi. Yüz illər keçsə də, Müslüm Maqomayev şəxsiyyəti və sənəti unudulmayacaq.

**İlham NƏZƏROV**
**Əməkdar artist**

# Üzeyir bəyin evində musiqili görüş

## Yeniyetmə ifaçıya yeni nailiyyətlər diləyi ilə



*Bu günlərdə Üzeyir Hacıbəylinin Ev-Muzeyinə bəstəkarın xalası nəvəsi, Bakı Musiqi Akademiyasının (BMA) nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının müəllimi Nərminə xanım Əliverdizadə zəng etdi. O, şagirdi Zərrin Şükürün bu məkanda çıxışı üçün muzey rəhbərliyindən icazə istəyirdi.*

Müəyyənləşdirdiyimiz gün onlar muzeyə gəldilər. Məlum oldu ki, Nərminə müəllimənin şagirdi Zərrin Şükür Ü.Hacıbəyli adına BMA-nın nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının və Bakı Atatürk liseyinin 7-ci sinfində təhsil alır. Müəlliməsi onun uğurlarından söhbət açdıqca, doğrusu, bu yeniyetmə musiqiçinin bacarığına heyran qaldıq. Öyrəndik ki, Zərrin 2016-cı ildə "Kainat" Gənclik Mərkəzinin layihəsi üzrə keçirilən İslam dünyası gənc klassik musiqi ifaçılarının V Beynəlxalq müsabiqəsində ən kiçik iştirakçı diplomu ilə, 2017-ci ildə Bakıda "Üzeyir Hacıbəylinin milli lad sistemi gənc musiqiçilərin tədris repertuarında" II Respublika festivalında diplom ilə təltif edilib. Yenə 2017-ci ildə Bakıda keçirilən klassik və folklor musiqisi üzrə I Beynəlxalq müsabiqədə laureat olub.

İstedadlı yeniyetmənin uğurları bununla bitmir. O, 2018-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq festivalın fortepiano üzrə yarışmasında II dərəcəli laureat adına layiq görülüb. Bundan əlavə, 2019-cu ildə Azərbaycan Təhsil Nazirliyinin dəstəyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Simurq" musiqi festivalı-müsabiqəsinin I dərəcəli laureatı olub.

Zərrin Şükürün öz müəlliməsi Nərminə Əliverdizadə ilə birlikdə milli ladda bir işləməsi və iki bəstəsi 2017-ci ildə Moskvada elmi nəşrlər jurnalında dərc edilib.



Nərminə müəllimənin ən istedadlı şagirdlərindən olan Zərrin pianoçu kimi bir çox xarici ölkənin professor və müəllimlərindən mütəmadi olaraq ustad dərsləri alıb və hazırda da almaqda davam edir.

Muzeyimizdə keçirilən tədbirdə Nərminə Əliverdizadə öz şagirdi ilə qürur duyduğunu və onun gələcəkdə daha böyük uğurlara imza atacağına inandığını söylədi.

Sonra Zərrin royal arxasına keçərək öz bəstələrindən nümunələr səsləndirdi. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması və onun premyerası haqqında ingilis dilində çıxış etdi. Bu çıxış əsasında videoçarx hazırlandı. Videoçarxın hazırlanmasında məqsəd Üzeyir Hacıbəyli irsinin ölkə hüdudlarından kənarda təbliğidir. Zərrin öz çıxışında bu təbliğat işində, kiçik də olsa, əməyi olduğundan qürur duyduğunu vurğuladı.

Muzeydə çəkilmiş videoçarx 18 sentyabr – Milli Musiqi Günündə yeniyetmə pianoçunun özünün "Ztempo" adlı "Youtube" kanalında yayımlanacaq.

Çıxışından sonra istedadlı şagird bütün uğurlarına görə Nərminə xanım Əliverdizadəyə öz dərin təşəkkürünü bildirdi və müəlliməsinin onun üçün çəkdiyi zəhməti heç zaman itirməyəcəyinə söz verdi.

Tədbirin sonunda muzeyin kollektivi adından qonaqlara təşəkkürümüzü bildirdik, belə istedadlı, zəhmətsevər azərbaycanlı gənclərin daha da çox olmasını arzuladıq. Bəstəkarın muzeydəki büstünün önündə xatirə fotoları çəkdirildi.

**Gülnarə ƏLƏSGƏROVA**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin Ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri**

# Musiqi məktəbi şagirdinin beynəlxalq müsabiqədə uğuru

*Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbinin şagirdi İskəndər Həsənzadə bu il Qazaxıstanın Aktobe şəhərində keçirilmiş "Baqytty Bala – 2021" Beynəlxalq uşaq vokal müsabiqəsində uğurla çıxış edib.*



Baş idarədən bildirilib ki, İ.Həsənzadə müsabiqədə 3-cü yeri tutub.

"Bauytty Bala" Qazaxıstanda hər il keçirilən yeganə uşaq vokal müsabiqəsidir. Müsabiqəyə dünyanın hər yerindən uşaqlar dəvət olunur. 2021-ci ildə müsabiqəyə 12 ölkədən müraciət daxil olub. Finala 20 gənc vokalçı vəsiqə qazanıb.

## Xatirə təqvimi — 13–19 avqust

### Azərbaycan

**13 avqust 1944** – Əməkdar artist Mansur Əbdül oğlu Mansurov (1944 – 22.4.2020) Bakıda doğulub. 1970-ci ildən ömrünün sonuna qədər A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub.

**14 avqust 1923** – Ədəbiyyatşünas, akademik, Dövlət mükafatı laureatı Kamal Abdulla Şaiq oğlu Talıbzadə (1923 – 20.1.2006) anadan olub. "Ədəbi irs və varislər", "Azərbaycan ədəbi tənqidinin tarixi" və s. monoqrafiya və kitabların müəllifidir.

**14 avqust 1933** – Şair, Əməkdar incəsənət xadimi Ramiz Heydər (Məmmədov; 1933-2010) Bakıda anadan olub. 30-dək kitabın müəllifidir. Sözlərinə "Ayrılma məndən", "Toy olsun, bayram olsun" və s. populyar mahnılar bəstələnib.

**14 avqust 1940** – Yazıçı-tərcüməçi, kino təşkilatçısı Asif Akif oğlu Əliyev (1940-2001) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında Dublyaj şöbəsinin baş redaktoru işləyib.

**14 avqust 1961** – Əməkdar artist Əzizə Əbdülbağı qızı Məmmədova (1892–1961) vəfat edib. Türk İşçi, Akademik Milli Dram teatrlarında çalışıb, "Görüş", "Səhər" və s. filmlərdə çəkilib.

**14 avqust 2017** – Tanınmış rəssam Əsgər Əsgərov (1948-2017) vəfat edib. Rəngkarlıq, batika, qrafika və s. nümunələrində İçərişəhər mövzu və motivləri xüsusi yer tutur.

**15 avqust 1902** – Əməkdar artist Qəmər Topuriya (Tamara Vissarionovna Topuriya; 1902-1947) Tiflisdə doğulub. Tiflis Azərbaycan Dram Teatrının, Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası olub.

**15 avqust 1922** – Xalq artisti, respublikanın Dövlət mükafatı laureatı Konstantin Adamov (1922-1990) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru (1947-ci ildən) olub, filmlərdə çəkilib.

**15 avqust 1952** – Əməkdar müəllim Yusif Boran oğlu Vəliyev (1952 – 25.5.2021) Ağdam şəhərində anadan olub. Bakı şəhəri G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin direktoru işləyib.

**16 avqust 1924** – Məşhur tarzən, Əməkdar artist Əhsən Əliabbas oğlu Dadaşov (1924 –29.5.1976) Bakıda anadan olub. 1960-cı ildə Azərbaycan Televiziya və Radiosunun "Xatirə" xalq çalğı alətləri ansamblını yaradıb. Hazırda kollektiv Əhsən Dadaşovun adını daşıyır.

**16 avqust 1925** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (1925 – 13.2.2009) Şəkidə anadan olub. 20-dək poema, 10 dram əsəri ("Vicdan", "Yollara iz düşür", "Özümüzü kəsən qılınc", "Dar ağacı" və s.) yazıb. Azərbaycan Ali Sovetinin (1980-1995), Milli Məclisin (1995-2000) deputatı olub.

**16 avqust 1925** – Yazıçı-dramaturq, ədəbiyyatşünas, dövlət xadimi Şıxəli Qurban oğlu Qurbanov (1925 – 24.5.1967) Bakıda doğulub. "Əcəb işə düşdük", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu" pyeslərinin müəllifidir. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan KP MK-nın katibi olub.

**16 avqust 1936** – Tanınmış filosof, AMEA-nın müxbir üzvü Zakir Cabbar oğlu Məmmədov (Baharlı; 1936 – 2.3.2003) Ağdamda doğulub. "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və s. kitabların müəllifidir.

**17 avqust 1942** – Dünya şöhrətli Azərbaycan müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev (1942 – 25.10.2008) Bakıda doğulub. Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Beynəlxalq müsabiqələrin qalibi, Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri olub. "Nizami" filmində (1982, rej. Eldar Quliyev) baş rola çəkilib.

**17 avqust 1943** – Xalq artisti, müğənni İlhamə Məzahir qızı Quliyeva (1943 – 25.2.2016) anadan olub. Azərbaycan Televiziya və Radiosu estrada orkestrinin, Dövlət Filarmoniyasının solisti olub.

**17 avqust 1958** – Musiqişünas, sənətşünaslıq namizədi Aytəkin Tofiq qızı Həsənova (1958-2012) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**17 avqust 1998** – Xalq yazıçısı Yusif Səmədoğlu (Yusif Səməd oğlu Vəkilov; 25.12.1935 – 1998) vəfat edib. "Ulduz", "Azərbaycan" jurnallarının baş redaktoru, Milli Məclisin deputatı olub.

**18 avqust 1991** – Görkəmli dilçi və ədəbiyyatşünas, şair, tərcüməçi, pedaqoq Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov, 5.5.1905 – 1991) vəfat edib.

**19 avqust 1901** – Xalq artisti İsmayıl Hüseyn oğlu Hidayətzadə (1901 – 11.11.1951) anadan olub. Opera və Balet Teatrında "Koroğlu", "Arşın mal alan" tamaşalarını səhnələşdirib. "Qız qalası", "Almaz" filmlərində çəkilib.

**19 avqust 1912** – Xalq şairi Mirvarid Paşa qızı Dilbazi (1912 – 13.7.2001) Qazax rayonunun Musaköy kəndində doğulub. "Məhəbbət", "Partizan Aliyə", "Ana ürəyi" poemaları, "Bənövşələr üşüyəndə", "Yasəmən fəsli" və s. kitabların müəllifidir. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

**19 avqust 1920** – Əməkdar incəsənət xadimi, musiqişünas Lyudmila Vladimirovna Karagiçeva-Bretanitskaya (1920-2015) anadan olub. Bakı Musiqi Akademiyasında dərs deyib. Azərbaycan bəstəkarlarının yaradıcılığına dair tədqiqatların müəllifidir.

### Dünya

**13 avqust 1899** – Amerika rejissoru, "Oskar" mükafatları laureatı Alfred Hiçkok (Alfred Joseph Hitchcock; 1899-1980) anadan olub. Filmləri: "Quşlar", "Naməlum insanlar qatarda", "39 pillə" və s.

**14 avqust 1867** – İngilis yazıçısı, dramaturq və şair, ədəbiyyat üzrə Nobel mükafatı (1932) laureatı Con Qolsuorsi (John Galsworthy; 1867-1933) anadan olub. "Forsaytlar haqqında saqa" trilogiyası, "Gümüş qutu" pyesi və s. əsərlərin müəllifidir.

**15 avqust 1771** – Şotland yazıçısı, şair, tarixçi Valter Skott (Walter Scott; 1771–1832) anadan olub. Tarixi roman janrının banisidir. Əsərləri: "Edinburq həbsxanası", "Ayvenqo", "Kventin Dorvard", "Marmion" (mənzum roman) və s.

**15 avqust 1890** – Fransız bəstəkarı Jak İber (Jacques François Antoine İbert; 1890-1962) anadan olub. Əsərləri: "Anjelika", "Kral İveto" (opera), "Səyyah cəngavər" (balet) və s.

**16 avqust 1645** – Fransız yazıçısı və mütəfəkkiri Jan de Labryuer (Jean de La Bruyere; 1645-1696) anadan olub. Əxlaq və fəlsəfi dəyərlərdən bəhs edən "Xarakterlər" əsərinin müəllifidir.

**17 avqust 1932** – Hind əsilli yazıçı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2001) Vidiadxar Suracprosad Naypol (1932–2018) Trinidad və Tobaqoda anadan olub. Ömrünün böyük hissəsini İngiltərədə yaşayıb.

**17 avqust 1935** – Rus teatr və kino aktyoru, rejissor, SSRİ Xalq artisti Oleq Tabakov (1935 – 12.3.2018) anadan olub. Çexov adına Moskva Bədaye Teatrına rəhbərlik edib. 100-dən çox filmdə çəkilib: "Hərb və sülh", "D'Artanyan və üç muşketyor", "Baharın on yeddi anı" və s.

**18 avqust 1850** – Fransız yazıçısı Onore de Balzak (Honore de Balzac; 20.5.1799 – 1850) vəfat edib. "Bəşəri komediya" silsiləsindən əsərləri ("Şaqren dərisi", "Qorio ata", "Sezar Biroto", "İtirilmiş illüziyalar" və s. romanlar) ilə şöhrət qazanıb.

**19 avqust 1689** – İngilis yazıçısı, sentimentalizmin banilərindən biri Semuel Riçardson (Samuel Richardson; 1689–1761) anadan olub. "Klarissa", "Çarlz Qrandison" romanlarının müəllifidir.

**19 avqust 1909** – Polyak yazıçısı, dissident Yeji Andjeyevski (1909–1983) anadan olub. Əsərləri: "Cənnətin qapıları", "Qaranlıq yeri örtür", "Kül və almaz".

**Hazırladı: Vüqar ORXAN**

# Fikrət Əmirovun “Min bir gecə”si yenidən Sankt-Peterburq səhnəsində

## Mariinski Teatrının simfonik orkestrini dirijor Əyyub Quliyev idarə edib



Mariinski Teatrının Primorsk filialının (Vladivostok şəhəri) balet truppası Sankt-Peterburqda növbəti qastrol səfərində olub. Tanınmış azərbaycanlı xoreoqraf, Rusiyanın Əməkdar incəsənət xadimi Eldar Əliyevin bədii rəhbəri olduğu truppanın çıxışı sənətsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

Avqustun 3-dən 15-dək davam edən qastrol proqramına dünya klassik balet repertuarının parlaq nümunələri – Adolf Adanın “Korsar”ı (6-8 avqust) və “Jizel”i (13-15 avqust), P.Çaykovskinin “Yatmış gözəl”i (10-12 avqust) və Fikrət Əmirovun “Min bir gecə” baleti (3-5 avqust) daxil edilib. Bu tamaşaların nümayişi ilə Mariinski Teatrının 238-ci mövsümü başa çatıb.

Truppanın qastrol çıxışları Eldar Əliyevin quruluşunda dünya şöhrətli Azərbaycan bəstəkarının baleti ilə açılıb. Üç gün nümayiş olunan tamaşalarda Mariinski Teatrının simfonik orkestri və xorunu Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev idarə edib.

Qeyd edək ki, Əyyub Quliyevin dirijorluğu ilə “Min bir gecə” baleti 2020-ci ilin avqust ayında Vladivostokda – Mariinski Teatrının Primorsk səhnəsində, 2021-ci ilin yanvarında Sankt-Peterburqda, may ayında isə Kazanda Rudolf Nureyev adına Beynəlxalq Balet Festivalının açılışında uğurla təqdim olunub.



Əsas partiyaları Primorski səhnəsinin solistləri İrina Sapojnikova, Anna Samostrelova, Sergey Umanets, Kanat Nadırbek, Liliya Berejnova, Katerina Floriya, Gilerme Junio və Yuriy Zinnurov ifa ediblər. Tamaşalarda Mariinski Teatrının balet artistləri Renata Şakirova (Şəhrizad), Yekaterina Çebıkina (Nuridə) və Nikita Korneyev (Şəhriyar) də yer alıb. Vokal bölümünü Anastasiya Kikot (soprano) oxuyub, milli alətimiz tarda isə Ramin Əzimov və Nadejda Medvedyeva ifa ediblər.

“Min bir gecə”nin yenidən, Mariinski Teatrının 238-ci mövsümünün sonunda Sankt-Peterburq səhnəsində nümayişi böyük marağa səbəb olub, bütün tamaşalara biletlər öncədən satılıb. İlk tamaşadan sonra Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov ifaçıları uğurlu çıxış münasibətilə təbrik edərək Fikrət Əmirovun baletinin yeni quruluşunun tarixi əhəmiyyətini qeyd edib. Möhtəşəm səhnə əsərində Rusiya və Azərbaycanın sənətçilərinin bərabər yaradıcılıq işinin iki ölkə arasında mədəni münasibətlərin inkişafına töhfə olduğu vurğulanıb.

# 30 ilik müstəqillik yolu

## Əlamətdar yubileylə bağlı TÜRKSOY-un tədbirləri davam edir

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY keçmiş Sovet İttifaqının beş türkdilli respublikasının – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30-cu ildönümü münasibətilə Türkiyənin şəhərlərində müxtəlif tədbirlər, səyyar sərgilər təşkil edir.

Avqustun 11-də layihə üzrə Nevşehirdə Hibe Dədə xatirə abidəsi və “Xivə – 2020: Türk dünyasının mədəniyyət paytaxtı” adlı fotosərgi açılıb. Abidə və sərginin açılışı TÜRKSOY ilə Nevşehir Ortahisar Bələdiyyəsinin əməkdaşlığı çərçivəsində gerçəkləşib.

Ortahisar Bələdiyyəsinin təşəbbüsü, TÜRKSOY-un və Özbəkistanın Türkiyədəki Səfirliyinin birgə dəstəyi ilə reallaşan Hibe Dədə abidəsinin açılışına Nevşehir valisi İnci Sezer Becel, Ortahisar Bələdiyyəsinin başqanı Mustafa Ateş, Özbəkistanın



Türkiyədəki Səfirliyinin müşaviri Avazbek Xocimetov, Kapadokya Universitetinin rektoru Həsən Əli Karasar, Qazaxıstanın TÜRKSOY-dakı nümayəndəsi Bakıtjan Ömərov, TÜRKSOY-un inzibati, maliyyə və hüquq işləri üzrə müdiri Sancar Mülazımoğlu qatılıb.

Abidənin açılışından sonra tədbir iştirakçıları 1990-cı ildə Orta Asiyadan UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş ilk şəhər, 2020-ci ildə TÜRKSOY tərəfindən “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilən Xivəyə həsr olunmuş fotosərgiyə baxıblar.

Tədbir çərçivəsində Türkiyədə son dövrdə yaşanan meşə yanğınları da unudulmayıb. Türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü çərçivəsində tədbirlərə qatılmaq üçün Türkiyəyə gələn Türk dünyası sənətçiləri və TÜRKSOY nümayəndə heyəti Ortahisar xatirə meşəsində simvolik olaraq bir ağac əkiblər. Bundan başqa, TÜRKSOY Türkiyə Eroziya, Yaşıllaşdırma və Təbii Abidələrin Mühafizəsi (TEMA) Fonduna 700 ədəd ağac əkmək üçün yardım edib.

Nümayəndə heyətini Ortahisar Bələdiyyəsinin başqanı Mustafa Ateş də qəbul edib. Görüş zamanı qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

**Mehparə SULTANOVA**
**Ankara**

# Moskva Beynəlxalq Kitab Yarmarkasının vaxtı dəyişdirilib

## Bununla belə kitab bayramı ənənəvi formatda keçiriləcək

Dünyanın ən məşhur kitab sərgilərindən olan Moskva Beynəlxalq Kitab Yarmarkası (MBKY) pandemiya səbəbindən bu dəfə tarixini dəyişməli olub. Hər il ənənəvi olaraq sentyabrın əvvəlində təşkil olunan kitab bayramı bir qədər gec – 23-26 sentyabr tarixində keçiriləcək.

Bu barədə MBKY-nin təşkilat komitəsi məlumat yayıb. Qeyd olunur ki, Rusiya ərazisində, xüsusən də Moskva şəhərində epidemioloji vəziyyəti nəzərə alaraq təşkilatçılar 34-cü Moskva Beynəlxalq Kitab Yarmarkasını bir qədər ertələmək qərarına gəliblər. Bununla belə, kitab bayramı ənənəvi formatda (canlı ziyarət və görüşlər) keçiriləcək.

Qeyd edək ki, yarmarka ötən il də pandemiyaya baxmayaraq beş gün (2-6 sentyabr 2020) müddətində əsasən ənənəvi formatda təşkil edilmişdi. Yarmarkada ölkənin müxtəlif regionlarından 300-dən artıq nəşriyyat iştirak etmiş, tədbir və



görüşlərin bir qismi isə onlayn şəkildə gerçəkləşmişdi. Xarici ölkələrdən iştirakçılar isə yarmarkaya videoəlaqə vasitələri ilə qatılmışdılar.

**LALƏ**

# Ölkəmiz “Junior Eurovision-2021” müsabiqəsində təmsil olunacaq



Bu ilin dekabr ayının 19-da Fransanın paytaxtı Parisdə “Avroviziya” uşaq mahnı müsabiqəsi – “Junior Eurovision-2021” keçiriləcək. Müsabiqədə Azərbaycanı Sona Əzizova təmsil edəcək. Bu barədə müsabiqənin milli yayımçısı olan İctimai Televiziyadan (İTV) məlumat verilib.

Təmsilçimiz İTV tərəfindən keçirilən “Səs uşaqlar” mahnı müsabiqəsindən tanınır. S.Əzizova sözügedən müsabiqədə ikinci yerdə qərarlaşmışdı.

Şüarı “Imagine!” (“Təsəvvür et!”) olan “Junior Eurovision-2021” mahnı müsabiqəsinin Parisdəki “La Seine Musicale” kompleksində keçirilməsi planlaşdırılır. Müsabiqədə Azərbaycan da daxil olmaqla 14 ölkənin iştirakı qeydə alınıb.

Xatırladaq ki, Azərbaycan bundan əvvəl “Avroviziya” uşaq mahnı müsabiqəsində üç dəfə iştirak edib.

# “Kaxeksiya” Hollivudda qalib gəlib

Tatarıstan istehsalı olan tammetrajlı “Kaxeksiya” filmi Hollivudun horror (qorxu-dəhşət filmləri janrı) kinofestivalının əsas proqramında qalib gəlib. Məluat üçün deyək ki, “Hollywood blood horror festival” kiçikbüdcəli, müstəqil filmlərin festivalıdır.

Kino layihələrini dəstəkləyən “Время кино” qeyri-kommersiya təşkilatının yaydığı xəbərə görə, “Kaxeksiya”nın dünya premyerası da elə bu festival çərçivəsində baş tutub. Məlumatda deyilir ki, “Kaxeksiya” festivalın “Tammetrajlı film” kateqoriyasında birincilik qazanıb.

Filmin süjetinə görə, tarix fakültəsində oxuyan tələbələr aspirant müəllimin elmi işindən ötrü material toplanması üçün eksperimentdə iştirak edirlər. “1921-ci ildə Volqaboyunda aclıq” mövzusuna fərqli yanaşmaq üçün aspirant onlardan xahiş edir ki, sessiya zamanı qapalı məkanda sağlamlığa zərər vurmayacaq müddətdə ac qalsınlar. Zirzəmidə quraşdırılmış kameralar isə eksperimenti canlı izləməyə imkan verir. Lakin eksperimentin sonuncu günü tə-



ləbələri zirzəmidən buraxmırlar. Uzunmüddətli aclıq onlarda ciddi fizioloji və psixoloji sarsıntılar törədir. Tələbələr özlərini 1921-ci ildəki aclıq dövründəki kimi hiss etməyə başlayır, gerçəkliklə qarabasmanı qarışdırırlar.

Rejissor Alina Qalimullina çəkilişləri üç tarixi məkanda aparıb. Filmdə əvvəllər dərc olunmamış arxiv materiallarının, həmçinin sənədli filmlərin və aclıq çəkmiş insanların ailə üzvlərinin söhbətlərinin köməyilə o dövrdəki Tatarıstan kəndli ailəsinin məişəti dəqiq detallarla canlandırılıb. Bundan başqa, film qəhrəmanları üçün yüz tarixi libas tikilib.

**GÜLCAHAN**

# Türk dünyasının tarixində parlaq iz

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Abayın 175 illiyinə həsr olunan poçt markalarının təqdimatı

Qazax mədəniyyəti və musiqisindən söz düşəndə, ilk növbədə, böyük şair, mütəfəkkir və bəstəkar Abay Kunanbayev yada düşür. O, təkcə qazax xalqının deyil, bütövlükdə Türk dünyasının tarixində parlaq iz buraxıb.



Təsadüfi deyil ki, Qazaxıstanın birinci Prezidenti – Elbası Nursultan Nazarbayev onu “Yol göstərən ulduz” kimi xarakterizə edib. Ulu öndər Heydər Əliyev Abayın 150 illik yubileyində onun yaradıcılığını qazax xalqının fəxri, xoşbəxtliyi adlandıraraq, onun eyni zamanda, bütün bəşəriyyətə məxsus olduğunu qeyd edib. Azərbaycanda da Abay Kunanbayevin xatirəsi həmişə əziz tutulur. 2011-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən, Bakının küçələrindən birinə Abay Kunanbayevin adı verilib. Həmin ildə Bakı Dövlət Universitetində Abay Mərkəzi fəaliyyətə başlayıb. Abayın zəngin yaradıcılığının öyrənilməsi, təbliği Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu üçün də xüsusi əhəmiyyət kəsb edir. Fond bu qəbildən layihələr çərçivəsində Abay Kunanbayevə həsr olunmuş yeni kitab hazırlayır.

Bu sözləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva avqustun 10-da Qazaxıstanın və Türk dünyasının böyük şairi, yazıçı, bəstəkar, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin (1845–1904) 175 illik yubileyi münasibətilə buraxılan poçt markalarının təqdimat mərasimində deyib.




Fondda keçirilən mərasimdə G.Əfəndiyeva diqqətə çatdırıb ki, keçən il Abay Kunanbayevin 175 və Azərbaycan xalqının böyük bəstəkarı Üzeyir Hacıbəylinin 135 illiyi münasibətilə poçt markaları İspaniyada çap edilərək dövriyyəyə buraxılıb.

Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov görkəmli mütəfəkkir və ictimai xadimin yaradıcılığından, Türk dünyasında Abaya göstərilən ehtiramdan, ayrı-ayrı ölkələrdə onun xatirəsinin əbədiləşdirilməsi üçün görülən işlərdən söz açıb. Səfir yubiley münasibətilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilən poçt markasının böyük şair və bəstəkarın xatirəsinə ehtiramın daha bir ifadəsi olduğunu bildirib.

Sonra poçt markaların möhürlənməsi mərasimi keçirilib. Zərfin üzərində yer alan markalar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov tərəfindən imzalanıb və möhürlənib. Poçt markalarının üzərində Abay Kunanbayevin təsviri ilə yanaşı, onun yaradıcılıq nümunələri, həmçinin Türk dünyasının mədəni dəyərləri və milli musiqi alətləri əks olunub.

Tədbirdə Azərbaycanın Əməkdar artisti Şövqi Hüseynov, Qazax Milli İncəsənət Akademiyasının artisti Akberen Atabay, Azərbaycan Dövlət Akademik Filarmoniyasının artistləri Nəzrin Aslanlı və Yuliya Matorina, gənc ifaçı Amina Nurmuxammedova milli musiqi alətlərinin müşayiəti ilə Abay Kunanbayevin şeir və mahnılarını səsləndiriblər.

Sonda xatirə şəkilləri çəkdirilib və hədiyyələr təqdim olunub.

Mədəniyyət Nazirliyinin kollektivi İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfova atası

**Emil Nəcəfovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin kollektivi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Aparat rəhbəri, Əməkdar mədəniyyət işçisi

**Əlibəyov Mirzə Murtuza oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1536

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.